AZƏRBAYCAN ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU

FƏRHAD İBRAHİMOV

# BAKIDA METALİŞLƏMƏ TARİXİ

(IX – XVII əsrlər)

www.preslib.az
PREZIDENT KITABXANASI

BAKI – ELM – 1995

Redaktorları: tarix elmləri doktoru **Q. M. Əhmədov**,
tarix elmləri namizədi **F. L. Osmanov**

**İbrahimov F.** Bakıda metalişləmə tarixi (IX—XVII əsrlər). —
Bakı: Elm, 1995.— 88 s.

ISBN 5—8066—0625—2

Monoqrafiya sənətkarlığın aparıcı sahələrindən biri olan metalişləməyə həsr olunmuşdur. Bu əsərdə qədim Bakı ərazisindən tapılan şəhər əhalisinin məişət və təsərrüfatında geniş istifadə olunmuş çoxlu miqdarda müxtəlif metal əşyalar, o cümlədən əmək alətləri, silahlar və s. öz əksini tapmışdır. Monoqrafiyada İçərişəhərdən əldə edilən metal məmulatından hazırlanmış əşyaların geniş çeşidli olması, onların təsərrüfat və məişət həyatında böyük rol oynaması müəyyən edilmişdir.

Klassiklər insanın həyat və fəaliyyətində əmək alətlərinin aparıcı rolunu xüsusilə qeyd etmişlər. Bu cəhətdən monoqrafiyada haqqında danışılan dəmirdən düzəldilmiş əmək alətlərinin orta əsrlərdəki əməli əhəmiyyəti nəzəri cəlb edir.

Bununla yanaşı arxeoloji tədqiqatlar nəticəsində əldə olunan əlvan və qiymətli metallardan hazırlanmış bədii tərtibatlı bəzək əşyaları haqqında da əsərdə ətraflı məlumat verilir.

İ 0504000000—393 Sifarişlə
55 (07)-95

© «Elm» nəşriyyatı,1995.

**MÜNDƏRİCAT**

G İ R İ Ş
ƏMƏK ALƏTLƏRİ
Sənətkar alətləri
Təsərrüfat və məişət alətləri
SİLAHLAR
Hücum silahları
Müdafiə silahları
MƏİŞƏT TƏSƏRRÜFAT ƏŞYALARI VƏ İNŞAAT MATERİALLARI
Məişət və  təsərrüfat əşyaları
İnşaat  materialları
BƏZƏK ƏŞYALARI
METALIN BƏDİİ İŞLƏNMƏSİ VƏ SƏNƏTKARLIQ TƏŞKİLATLARI
NƏTİCƏ
QƏBUL OLUNMUŞ İXTİSARLAR
TABLOLAR

*Görkəmli tədqiqatçı, hörmətli alim,*
*gözəl insan, xeyirxah müəllimim*
*Ömər Şirəli oğlu İsmizadənin*
*əziz xatirəsinə ithaf edirəm.*

# G İ R İ Ş

Azərbaycanda xalq sənətkarlığının qədim bir tarixi vardır. Zəmanəmizə qədər gəlib çatmış sənət nümunələri bunu bir daha təsdiq edir. Xalqın içərisindən çıxmış mahir ustalar müxtəlif yüzilliklərdə çoxlu sənət növlərini davam etdirməklə hamını heyran edən sənət nümunələri yaratmış, onları təkmilləşdirib nəsilbənəsil davam etdirmiş və əsrlərdən-əsrlərə ötürmüşlər.

Qədim daş dövründən başlamış son orta əsrlərə qədərki dövrün sənət əsərlərini yalnız arxeoloji qazıntıların sayəsində öyrənmək mümkün olur. Bu əsərdə oxucular qazıntı nəticəsində aşkar olunan IX — XVII yüzilliklərdə qədim Bakının şəhər həyatı və xalq sənətkarlığı nümunələri ilə tanış olacaqlar.

Azərbaycanın paytaxtı Bakı şəhərinin zəngin bir tarixi vardır. Abşeron yarımadasının cənubunda yerləşən bu şəhər qərbdən Qobustan coğrafi rayonu, şərq, şimal və cənubdan isə zəngin balıq sərvətlərinə malik olan Xəzər dənizi ilə həmsərhəddir. Quru subtropik iqlimi olan Abşeron və onu əhatə edən Xəzər dənizinin sahil zolağı neft və təbii qaz ehtiyatları ilə zəngindir[1].

Xəzərdə ən böyük liman sayılan Bakı daim dənizlə əlaqəli olmuşdur. Şəhərin iqtisadi həyatının canlanmasına səbəb olan amillərdən biri də məhz onun liman şəhəri kimi əhəmiyyətinin yüksəlməsidir.

Bakı hələ qədim zamanlardan Yaxın Şərq, Orta Asiya və digər qonşu ölkələrlə həm dəniz, həm də karvan yolu vasitəsilə iqtisadi, mədəni və ticarət əlaqələri saxlamışdır. Bakı xüsusilə özünün zəngin nefti və duzuna görə məşhurlaşmışdır. Alban tarixçisi Moisey Kaqankaytuklu (VII əsr) ölkənin təbii zənginliklərindən danışarkən Albaniyada taxılın bolluğundan, ipək, pambıq, neft, duz və digər sərvətlərdən söhbət açır, dağlarından qızıl, gümüş, mis və s. çıxarılması haqqında məlumat verir[2].

Bakı və onun təbii zənginlikləri haqqında ərəb alim və səyyahlarının əsərlərində xeyli məlumatlara təsadüf olunur. Ərəb müəlliflərindən X əsrdə yaşamış Məsudi yazır: «Bakıda ağ və başqa növ neft vardır, ağ neft heç bir yerdə deyil, yalnız Bakıdadır. Bu zəngin neft olan torpaqda yerin altından vulkan şəklində heç vaxt sönməyən od püskürmələri çıxaraq yuxarı qalxır».[3]

Bakının zəngin neft və duzundan ilk növbədə ölkənin daxilində geniş istifadə olunurdu. Mənbələrin məlumatına görə Beyləqanda satılan neft və duz Bakıdan gətirilirdi.[4]

Orta əsrlər Bakısının müasir dövrə qədər əzəmətini saxlamış qala divarları, tarixi memarlıq abidələri onun orta əsrlərdə inkişaf etmiş ticarət, sənətkarlıq və mədəniyyət mərkəzlərindən biri olmasına dəlalət edir. Möhtəşəm Qız qalası şəhərin qala divarları ilə birlikdə Bakının müdafiəsində uzun müddət mühüm rol oynamışdı. Orta əsrlərdə nəinki Azərbaycanda, hətta Yaxın Şərqdə ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi məşhur olan Bakı XV əsrdə Şirvanşahların paytaxtı buraya köçürüldükdən sonra daha böyük siyasi, iqtisadi və mədəni əhəmiyyət kəsb etmişdir. Şəhərin beynəlxalq ticarət yolları üstündə yerləşməsi də onun yüksəlməsinə təsir göstərən amillərdən olmuşdur.

Şəhər ərazisində orta əsrlərin müxtəlif dövrlərinə aid çoxlu yerüstü zəngin memarlıq abidələri—Qız qalası, Şirvanşahlar sarayı kompleksi, çoxlu məscidlər, karvansaralar, hamamlar və s. bakılıların yaratdığı nadir sənət abidələrindəndir.

Bakının dənizə və quruya açılan beş darvazasının olması haqqında da mənbələrdə məlumat vardır. Şəhərin şimal tərəfdən Şamaxı, qərbdən isə Salyan darvazaları quru ilə əlaqə üçün əsas yol olmuşdur. Darvazalar tağbənd formada tikilmişdir. Şamaxı darvazasının tağbəndi, üstündə isə ərəb əlifbası ilə inşaat yazısı və qabarıq şəkildə şəhərin rəmzi olan öküz başı, şir rəsmləri həkk olunmuşdur.

Qala divarlarının şimal tərəfində 1954-cü ildə aparılan bərpa işləri zamanı tapılan yazılı daşdan məlum olmuşdur ki, Bakının qala divarı 1120—1149-cu illərdə hakimlik etmiş Şirvanşah II Mənuçöhrün göstərişi ilə tikilmişdir[5].

Əhəng daşından hörülmüş nəhəng qala divarlarının üstü diş-diş şəkildə çıxıntılar və mazqallarla tamamlanır. Tarixi mənbələrin məlumatına görə şəhərin vaxtilə üç cərgə qala divarı olmuşdur. Son dəfə bərpa edilən müasir divar, tədqiqatçıların fikrincə, qalanın ikinci divarıdır. İçərişəhərin qala divarlarının xarici

---

[1] Gül. Q. Azərbaycan SSR fiziki coğrafiyası, Bakı. 1976. s. 29. 44.
[2] Моисей Каганкатвации. История Агван, пер. К.Патканова, СПб, 1961, с.5.
[3] Масуди. Луга золота и рудники драгоценных камней. Перевод Н.Н.Караулова. СМОМПК, вып. XXXVIII,Тифлис, 1908.
[4]Миклухо-Маклай Н.Д. Географическое сочинение XIII века. Учение записки Ин-та востоковедения. М – Л., 1954, с. 236; Müq. et. Буниятов З.М. Государство Атабеков Азербайджана. 1978, с. 199.
[5]Hüseynov Ə. Bakı şəhərinin tarixinə dair qiymətli sənəd. Azərbaycan tarixinə dair materiallar. Azərbaycan Tarixi Muzeyinin əsərləri, V c., 1962, s. 68 — 72.

tərəfində təhlükə zamanı su ilə doldurmaq üçün müdafiə əhəmiyyətli dərin xəndək də qazılmışdır. Yeri gəlmişkən qeyd etməliyik ki, arxeoloji qazıntılar Bakının qala divarının qaya üstündə tikilməsini dəfələrlə təsdiq etmişdir.

Şəhərin yaranmasını, onun inkişafını, sənətkarlıq mərkəzi kimi formalaşmasını əsaslandıran, ona zəmin yaradan təbii zənginliklər, coğrafi yerləşmə, habelə başqa ictimai amillərlə yanaşı, onun qala divarları, qala darvazası, həmçinin digər memarlıq abidələrindən əsərin girişində qısa şəkildə olsa da danışmaqda məqsəd şəhərin iqtisadi həyatında metalişləmənin rolunu və arxeoloji qazıntılar nəticəsində tapılan metaldan əmək alətləri, silahlar, tikinti-inşaat materialları, habelə məişət, insəsənət və bəzək məmulatının məhz təsadüfən deyil, inkişaf etmiş bir şəhərin məhsulu olduğunu, həm də yerli sənətkarların yüksək yaradıcılıq qabiliyyətinin göstəriciləri kimi nəzərə çarpdırmaqdır.

Qeyd etməliyik ki, şəhərin tarixi yazılı mənbələrin azlığı üzündən çox zəif öyrənilmişdir. Məhz buna görə də Bakının qədim tarixi, maddi mədəniyyəti, incəsənəti və memarlığının ətraflı tədqiqi üçün İçərişəhərdə geniş arxeoloji qazıntı işləri aparılır.

Qeyd etməliyik ki, şəhərin zəngin yerüstü memarlıq abidələri kimi, arxeoloji qazıntılar nəticəsində torpaq altından üzə çıxarılan müxtəlif sahələrə aid minlərlə maddi mədəniyyət nümunələri, o cümlədən çoxlu miqdarda metal əşyalar Bakının keçmiş həyatı haqqında çox şey deyə bilir.

Bakının arxeoloji tədqiqinə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra başlanmışdır. Burada 1924—1925, 1938—1939, 1944—1946-cı illərdə yalnız qısamüddətli qazıntı işləri aparılmışdı, 1962-ci ildən isə geniş tədqiq olunur.

Bakının inkişaf tarixini və maddi mədəniyyətini diqqətlə araşdırmaq üçün arxeoloji tədqiqatlar həm şəhərin yerləşdiyi təpənin zirvəsində, həm yamaclarında, həm də ətəklərində aparılmışdır. Qazıntılar göstərmişdir ki, əsrlər boyu İçərişəhər ərazisində intensiv həyat nəticəsində 5—6 m qalınlığında mədəni təbəqə yaranmışdır. Burada yaşayış qala divarları tikiləndən çox-çox qabaq başlamışdır. Arxeoloji tədqiqatlar Abşeronda hələ tunc dövründə insan məskənlərinin mövcud olduğunu sübut etmişdir. Bu da Bakıda yaşayışın qədim dövrlərdən başladığını söyləməyə əsas verən amillərdən biridir. V—VI əsrlərə aid Sasani dəfinələrinin tapılması Bakının həmin dövrlərdə böyük yaşayış məntəqəsi olduğunu söyləməyə imkan verir. Görünür, əvvəllər kiçik yaşayış məntəqəsi olan Bakı özünün təbii sərvətlərinin zənginliyinə və əlverişli yerdə olmasına görə daha sürətlə inkişaf etmiş, getdikcə ticarət və sənətkarlıq mərkəzinə çevrilə bilmişdir.

Qədim Bakının adının mənşəyi məsələsinə gəldikdə bu hələ də mübahisəli qalmaqdadı. Tədqiqatçılar elmi araşdırmalara əsaslanaraq Bakı istilahını müxtəlif şəkildə izah edirlər. Həmin fikirlərin içərisində tarixçilərdən S. Aşurbəyli və Ə. Hüseynzadənin mülahizələri daha çox maraqlıdır. Tədqiqatçı, tarix elmləri doktoru S. Aşurbəyli tarixi araşdırmalara əsaslanaraq Bakı termininin qədim tayfa adı ilə bağlı olduğunu söyləyir[6]. Ə. Hüseynzadə isə Bakı istilahı ilə əlaqədar olan bütün fikirləri elmi şəkildə təhlil edir və XI əsrin məşhur türk alimi Mahmud Kaşqarinin qədim türk dilinin lüğətinə əsaslanaraq təpə adı ilə əlaqələndirir[7].

Azərbaycanın orta əsrlər tarixinin bir sıra məsələlərini tədqiq etmək üçün başqa orta əsr şəhərlərilə yanaşı, Bakının da şəhər həyatının, xüsusilə sənətkarlığının öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Ümumiyyətlə şəhərlər ölkənin iqtisadi, ictimai və siyasi həyatında mühüm rol oynadığından onlarsız ölkədə məhsuldar qüvvələrin inkişafını, sənətkarlığın vəziyyətini, formalaşmasını və xalqın mədəni səviyyəsini araşdırmaq qeyri-mümkündür.

Orta əsr şəhərlərinin inkişafına nəzər salarkən onların sənətkarlıq və ticarət mərkəzi kimi formalaşdığını aydın görmək olur. Karl Marks şəhərlərin yaranması prosesində məhz sənətkarlığın rolunu yüksək qiymətləndirir[8].

Bakıda aparılan qazıntılar zamanı əldə olunan zəngin materiallar içərisində metal məmulatı xüsusi yer tutur. Ümumiyyətlə, Azərbaycanda metalişləmə sənətinin qədim bir tarixi vardır. Arxeoloji qazıntılar nəticəsində aşkar edilən metal məmulatı nümunələri bu peşənin burada hələ eradan əvvəl IV — III minilliklərdə yaranıb sonralar sürətlə inkişaf etdiyini göstərir[9].

Zəngin təbii sərvətlərə malik olan Azərbaycan torpağı qədim zamanlardan başlayaraq bütün orta əsrlər və sonrakı dövrlərdə metallurgiyanın inkişafı üçün təbii zəmin yaratmış və ölkədə metalişləmə sənətinin geniş yayılmasına təsir göstərmişdir. Arxeoloji tədqiqatlar Azərbaycanın orta əsr şəhərlərində inkişaf etmiş sənət sahələri içərisində metalişləmənin özünəməxsus yer tutduğunu bir daha təsdiq etmişdir. Xüsusilə, orta əsr şəhər sənətkarlığında aparıcı sahələrdən biri kimi metalişləmə feodal şəhərlərinin formalaşması və inkişafında böyük rol oynamışdır. Bu baxımdan Bakıdan əldə olunan metal məmulatının öyrənilməsinin əhəmiyyəti böyükdür.

---

[6] Ашурбейли С.Б. Очерк истории средневекового Баку. Баку, 1964, с. 43-46.

[7] Гусейнзаде А.О. О происхождении топонима Баку. Советская Тюркология, № 3, Баку, 1970, с. 82-84.

[8] Маркс К., Энгельс Ф. Сочинения, т. IV, с. 41.

[9] Иессен А. А., Деген-Ковалевский Б. Е. Из истории древней металлургии Кавказа. Изв. ГАИМК, 120-ci бур. 1935, с. 20; Кашкай М. А., Селимханов И. Р. Химическая характеристика браслетов из Мингечаурских погребении с сильноскорченным костяком. Az. SSR EA Məruzələri, 1955, № 3. с. 201—203; Абибуллаев О. А. К вопросу о древней металлургии Азербайджана. Труды Азерб. экспедиции, т. II, МИА СССР, № 125. М—Л., 1965. с. 66.

Qeyd etməliyik ki, bu mövzuda hələlik ümumiləşdirici bir məqalə belə yazılmamışdır. Yalnız arxeoloji qazıntıların hesabatlarında[10], bəzi monoqrafiya[11] və məqalələrdə[12], həmçinin məlumat xarakterli məcmuələrdə[13] Bakı metalı haqqında çox qısa məlumata təsadüf olunur. İçərişəhərdəki arxeoloji tədqiqatlar nəticəsində xeyli miqdarda müxtəlif metal əşyalar aşkar edilmişdir. Metalın təkrar istehsalını da nəzərə alsaq, Bakıda metal məmulatının daha zəngin olduğu qənaətinə gələ bilərik. Tapıntıların əksəriyyəti bütöv, müəyyən miqdarı isə qırıq hissələrdən ibarət olub qara, əlvan və qiymətli metallardan (dəmir, mis, tunc, gümüş və qızıl) hazırlanmışdır. Onların içərisində əmək alətləri, silahlar, məişətdə və təsərrüfatda istifadə olunan əşyalar və çoxlu bəzək şeyləri vardır.

Metal məmulatı təsnif olunarkən onların həm təsərrüfat, məişət əhəmiyyəti, həm də sənətkarlıq məhsulu kimi cəhətləri əsas götürülmüşdür.

Məlum olduğu kimi, metalişləmə sənəti feodal şəhərlərinin sosial-iqtisadi və təsərrüfat həyatında böyük rol oynamış, məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafına əsaslı təsir göstərmişdir.

Təəssüflə qeyd etməliyik ki, şəhər sənətkarlığında aparıcı rol oynayan bu sənət haqqında tarixi mənbələrdə elmi məlumatların olmaması əsərin daha ətraflı tarixi səpkidə yazılmasına imkan vermir. Lakin Bakının orta əsr tarixilə bağlı olan bu mövzunun şəhərin həyat tərzini, sənətkarlığın səviyyəsini və ümumiyyətlə dövrün iqtisadi inkişafını öyrənmək üçün xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq tədqiqini lazım bildik.

Bakının orta əsr metalişləmə sənətinə həsr edilmiş bu əsər xronoloji cəhətdən IX—XVII əsrləri əhatə edir. Əsərin bu səpkidə yazılmasında məqsəd öyrəndiyimiz dövrdə Bakıda şəhərin iqtisadi həyatında həlledici rol oynamış metalişləmə sənətini ümumiləşmiş və yığcam şəkildə oxuculara çatdırmaqdır.

---

[10] İsmizadə Ö. Ş., İbrahimov F. Ə., Qədirov F. V., Minkeviç-Mustafayeva N. V., Fomenko V. P. Bakı arxeoloji ekspedisiyasının hesabatları, 1962—1968-ci illər. Azərbaycan EA Tarix İnstitutunun elmi arxivi, inv. 7498 (0,37), (h-26/1), 0—09, № 18.

[11] Исмизаде О. Ш. Историко-археологические исследования города Баку (VIII—XVII вв.). Azərbaycan EA Tarix İnstitutunun elmi arxivi, fond 1. siyahı 16. iş 6994.

[12] Бартольд В.В. Отчет об осмотре древнего мусульманского кладбища в г. Баку. Изв. Импер. археол. комис. вып. 16, С. Петербург, 1905, с. 117-119; Левиатов В.Н. Археологические раскопки близ дворца Ширваншахов в г. Баку, МКА, т. I, Baku, 1949, s. 115; İsmizadə Ö. Ş. 1966-cı ildə İçərişəhər ərazisində aparılan arxeoloji tədqiqat işlərinin nəticələri haqqında. AMM, VIII cild, Bakı, 1976, s.179.

[13] Асланов Г.М. , Голубкина Т.Н., Садыхзаде Ш.Г. Каталог золотых и серебряных предметов и археологических раскопок Азербайджана. Баку, 1966, с. 23, 30.

## ƏMƏK ALƏTLƏRİ

Maddi nemətlərin yaradılmasında mühüm rol oynayan əmək alətləri xalqın məşğuliyyətini, ictimai, iqtisadi həyatını öyrənməkdə tədqiqatçılara yaxından kömək edir. Bakıda aparılan arxeoloji qazıntılar nəticəsində xeyli əmək alətləri tapılmışdır. Onların bir hissəsi əkinçilik və bağ-bostan təsərrüfatını, digər hissəsi məişət və təsərrüfatın başqa sahələrinin, həmçinin bu sahələrdə işlədilən istehsal alətlərinin inkişaf səviyyəsini öyrənmək cəhətdən əhəmiyyətlidir. Məlum olduğu kimi, əmək alətləri istifadə olunduğu dövrlərin istehsal münasibətlərini və ictimai quruluşu öyrənmək üçün başlıca mənbə kimi böyük qiymətə malikdir.

Klassiklər keçmiş ictimai iqtisadi formasiyaları xarakterizə etmək üçün məhz istehsal alətlərinin əhəmiyyətini yüksək qiymətləndirirlər. Onlar yazırlar: «Nəsli kəsilmiş heyvan növlərinin qalmış sümüklərinin quruluşu onların bədən quruluşunu tədqiq etmək üçün nə qədər əhəmiyyətlidirsə, əmək vasitələrinin qalıqları da aradan qalxmış olan ictimai-iqtisadi quruluşları tədqiq etmək üçün eyni dərəcədə qiymətlidir. İqtisadi dövrlərin fərqi həmin dövrdə nə istehsal edilməsində deyil, necə və hansı əmək vasitələrilə istehsal edilməsindədir» (K. Marks. Kapital, I cild, Bakı, 1969, s. 186).

Qeyd etməliyik ki, Bakıda orta əsrlərdə işlədilən, müxtəlif növ əmək alətlərinin, şübhəsiz, yalnız cüzi bir hissəsi arxeoloji qazıntılar nəticəsində tapılmışdır. Onların içərisində həm sənətkar alətlərinə—çəkic, maşa, isgənə, zindan və s. həm də təsərrüfat və məişətdə işlədilən alətlərə—toxa, bel, çin, balta, bıçaq, çapacaq, dəhrə, oymaq, biz, qıyıq və s. təsadüf edilir.

Yuxarıda qeyd edilən əmək və təsərrüfat alətləri, habelə məişətdə işlədilən bəzi əşyalar dəmirdən düzəldilmişdir. Göstərilən alətlərin hazırlanmasında əsasən isti döymə üsulundan geniş istifadə olunmuşdur. Dəmiri yalnız qızdırılmış halda döyüb yastılamaq, uzatmaq, əymək, qatlamaq və s. mümkün olur. Soyuq döymə adətən dəmir döyülüb müəyyən formaya salındıqdan sonra tətbiq edilir. Dəmir alətlər yalnız dəmirçi körüyünün vasitəsilə qızdırılır və alətin xarakterindən asılı olaraq lazım olan texniki iş üsulları—deşmə, qatlama, əymə, kəsmə, qaynaqetmə və s. tətbiq edilir. İşlək hissəsinin möhkəmliyi vacib olan alətlər dəmir və poladdan hazırlanır. Polad istehsalının mürəkkəbliyi ilə əlaqədar olaraq orta əsrlərdə qənaət məqsədilə ondan yalnız alət və silahların işlək hissəsində istifadə olunurdu. Etnoqrafik məlumatlara görə XIX—XX əsrin əvvəllərində kütləvi tətbiq olunan bu üsuldan, şübhəsiz, orta əsrlərdə də istifadə edilmişdir[14].

## SƏNƏTKAR ALƏTLƏRİ

**Çəkiclər.** Ən mühüm sənətkar alətlərindən olan dəmir çəkiclərin bəziləri bütöv qalmış, bəziləri isə qırılmışdır. Dəmir çəkic metalişləmədə zərb üçün yararlı olan yeganə alətdir. Onlar iş xüsusiyyətlərinə və həcminə görə müxtəlifdir. İşlək hissələri dairəvi, kvadrat və düzbucaqlı şəkildə düzəldilir. Forması dairəvi olanlar əksəriyyəti təşkil edir. Ustanın çox işlətdiyi əsas çəkiclərdən biri dəmiri döyüb yastılamaq, enlətmək və uzatmaq üçün istifadə etdiyi alətdir.

Bakıdan tapılan çəkic bu cəhətdən diqqəti xüsusilə cəlb edir. İçərişəhərdə I qazıntı sahəsində 4,4 m dərinlikdən aşkar edilən bu çəkic təbəqə materiallarına görə XI—XII əsrlərə aid edilir (I tablo, 1). Çəkic bütövdür. Nisbətən yaxşı qalmışdır. Onun uzunluğu 17, qalınlığı 5,5, eni isə 7,5 sm olub, 1,6 kq ağırlığındadır. Bu sənətkar alətinin zərb üçün olan bir tərəfi dairəvi, digəri isə dördbucaqlıya oxşardır. Onun işlək hissələrinin müxtəlif olması çəkicdən yeri gəldikcə istənilən məqsəd üçün istifadə etmək imkanı verir. Onun ortasında diametri 3X3 sm olan dairəvi deşik vardır. Deşiyin içərisini pas örtdüyündən onun ikitərəfli olub-olmadığını söyləmək çətindir. Əgər dəstək yeri ikitərəfli deşik deyilsə onda çəkicin sapının da dəmirdən düzəldiyi ehtimalı yaranır.

Bəhs etdiyimiz bu çəkic müasir kustar dəmirçilərin çəkiclərinə oxşardır. Belə ki, müasir dəmirçi çəkiclərindən birinin zərb üçün olan hissələri Bakı çəkicində olduğu kimi bir tərəfi dairəvi, digər tərəfi isə dördküncdür.[15] Arxeoloji tapıntı ilə müasir dəmirçi çəkicinin oxşarlığı bu alətin uzun əsrlər bir o qədər də böyük dəyişiklik olmadan xalqın sənətində yaşadığını göstərir.

1969-cu ildəki qazıntılar zamanı XIV—XV əsrlərə aid maddi mədəniyyət qalıqları ilə birlikdə tapılan dəmir çəkic isə nisbətən pis qalmışdır. Onun formasını dəqiq bərpa etmək çətindir. Üzərini qalın pas örtməsinə baxmayaraq, yalnız ümumi formasını müəyyən etmək olur. Çəkicin uzunluğu 16,5, eni 6, qalınlığı isə 5 sm-dir. Onun zərb üçün olan hər iki tərəfi dördkünclüdür. Diametri 3X4 sm olub, ağzı bir az xaricə doğru qabarıqdır. Çəkicin dəstək yerinin izi qalmışdır. Yan tərəfdən baxdıqda çəkic açıq qövs şəklini xatırladır. Formasına görə

[14] İbrahimov F. Ə. Azərbaycanda kustar metalişləmə sənətində kəsər alətlərin hazırlanması texnologiyasına dair. Azərb. SSR EA ТИАИЕКМТ, Bakı, 1966, s. 12 — 13.

[15] Quliyev H., Tağızadə N. Metal və xalq sənətkarlığı. Bakı.1968, s. 63, XIII tablo. 8.

bu çəkic daha çox müasir misgərlərin çəkicinə oxşayır[16]. Lakin müasir misgərlərin çəkicinin dəstək yeri küpün bir tərəfində olduğu halda, bu çəkicinki orta hissədədir. Bu isə, görünür, çəkiclərin təkmilləşməsi ilə əlaqədardır.

İçərişəhərdə 1976-cı il arxeoloji tədqiqatları nəticəsində XIV—XV əsrlərə aid üst təbəqədən tapılan bir ədəd dəmir gürz qırığı da maraqlıdır. Üstünü qalın pas təbəqəsi örtdüyündən bu gürzün formasını dəqiq müəyyənləşdirmək çətindir. Lakin qalığa əsasən demək olar ki, bir tərəfi dördkünc, digəri isə dairəviyə yaxındır. Onun orta hissəsində dəstəyinin izi qalmışdır. Güclü korroziyaya uğradığından parçalanma qorxusu olduğu üçün dəstək yerini təmizləmək mümkün olmadı. Qeyd etməliyik ki, çəkici və quruluşu onun gürz olduğunu söyləməyə əsas verir.

Bakıda Şirvanşahlar sarayının həyətində aparılan arxeoloji qazıntılar zamanı 4 metr dərinlikdən başqa bir gürz də tapılmışdır. Onun uzunluğu 15, eni 10, qalınlığı isə 8 sm-dir. Tədqiqatçı V. N. Leviatov qazıntıya həsr etdiyi hesabatda gürzün quruluşu haqqında ətraflı məlumat vermir[17]. Haqqında danışdığımız gürzün ölçüləri və çəkici onun dəmirçi sənətkara məxsus orta həcmli zərb aləti olduğunu göstərir. Gürz XII—XIII əsrlərə aid edilir[18].

**Dəmirçi maşası.** Bakıda Şirvanşahlar sarayının həyətində 1939-cu ildə aparılan qazıntı nəticəsində qeyd etdiyimiz gürz ilə birlikdə dəmir maşanın bir parçası da tapılmışdır[19]. Onun uzunluğu 45 sm-dir. V. N. Leviatov qeyd edir ki, bu maşa kömür götürmək üçündür[20]. Təəssüflə qeyd etməliyik ki, hesabatda dəmir maşanın nə şəkli, nə də haqqında başqa məlumat verilməmişdir. Bu cəhətdən maşanı etnoqrafik materiallarla müqayisə edib haqqında ətraflı məlumat vermək imkanımız azdır. Lakin qeyd etməliyik ki, dəmir maşa kömür götürmək üçün məişətdə işlənməklə bərabər dəmirçi sənətkara məxsus alət kimi daha qiymətlidir. Dəmir maşa qızdırılmış dəmiri ocaqdan götürüb zindan üstündə əşya hazırlamaq üçün lazım olan ən yararlı alətlərdən biri sayılır. Bizə elə gəlir ki, dəmir maşanın gürzlə birlikdə tapılması və etnoqrafik materiallardan məlum olan ölçü ilə bu maşanın uyğunluğu onun məhz dəmirçi sənətkara məxsus alət olduğunu söyləməyə daha çox əsas verir[21].

**İskənə.** 1967-ci ildə İçərişəhərdə arxeoloji qazıntılar zamanı üç ədəd dəmir iskənə tapılmışdır. İskənə[22] üstünə çəkic zərbləri vurmaq yolu ilə metalı kəsmək üçün işlədilən alətdir. Belə alətlər əslində iki cür olub biri metalı isti, digəri isə soyuq şəkildə kəsmək üçün işlədilir. Adətən metalı isti halda kəsmək üçün iskənədən əsasən dəmirçi, soyuq şəkildə isə misgər, zərgər və çilingərlər istifadə edirlər. Bakıdan tapılan isgənələr öz quruluşlarına görə bir-birindən fərqlənir. Onlardan biri 1975-ci ildə 10-cu qazıntı sahəsindən 2,8 m dərinlikdən tapılmışdır (I tablo, 6). En kəsiyi lentvarı formadadır. Çox paslandığından uc hissəsi xeyli ovxalanıb tökülmüşdür. Onun başlığı dördbucaqlı formaya yaxın olub, ölçüsü 1,5X2 sm-dir. İskənə uca doğru getdikcə bir az ensizləşir. Belə ki, onun zərb vurulan başlıq hissədə eni 2 sm, uc tərəfdə isə 1 sm-dən bir qədər çoxdur. Kəsər hissəsi qırıldığından onun ucluğunu dəqiq müəyyən etmək mümkün olmadı. Sağ qalmış uzunluğu isə 13,8 sm-dir.

1969-cu ildə 11-ci qazıntı sahəsindən aşkar edilən iskənənin də en kəsiyi lentvarıdır (I tablo, 4). Lakin əvvəlkindən xeyli qalındır. Nisbətən yaxşı qalmış bu alətin zərb hissəsi dördbucaq formadadır. İskənə uca doğru getdikcə nazilir. Zərbə vurulan tərəfdə eni 1,5 sm, ucluqda isə 0,5 sm-dir. Onun ümumi uzunluğu 12,5 sm-dir. Bu iskənə ağzının kiçikliyinə görə çox güman ki, metalın soyuq halda kəsilməsində işlədilən çilingər alətidir. Qazıntının II mədəni təbəqəsindən əldə olunan bu alət saxsı məmulatına əsasən XIV—XV əsrlərə aid edilir.

Şəhərin cənubunda yerləşən XIV—XV əsrlərə aid ikimərtəbəli karvansaranın bərpası ilə əlaqədar aparılan qazıntılar zamanı tapılan dəmir iskənə də diqqəti cəlb edir (I tablo, 2). Bu, əvvəlkilərdən quruluşuna görə fərqlənir. Başlığı dairəvi formada olub yuxarıya doğru azca qabarıqdır. Onun papağa yaxın hissəsinin en kəsiyi dairəvidir. Lakin uca doğru getdikcə lentvarı şəkil alaraq həm də genəlir. Zərb vurulan tərəfinin eni 1,5 sm olduğu halda, uca yaxın enlənib 2,5 sm-ə çatır. İskənənin kəsər tərəfi qırıldığından ölçüsünü tam vermək mümkün olmadı. Onun qalmış uzunluğu isə 9 sm-dir. Əvvəlkilərdən fərqli olaraq bunun ağzı çox enlidir. Bu da yəqin ki, iş xüsusiyyəti ilə əlaqədardır. Ondan mis təbəqələrini kəsmək üçün istifadə olunduğunu söyləmək mümkündür.

---

[16] Yenə orada. s. 33, II tablo.

[17] Leviatov V. N. Göstərilən əsəri, s. 115.
[18] Yenə orada.
[19] Leviatov V. N. Göstərilən əsəri, s. 115.
[20] Yenə orada.
[21] Quliyev H., Tağızadə N. Göstərilən əsər. s. 63. XIV tablo. 12.
[22] Metalı kəsmək üçün işlədilən bu alət bəzi ədəbiyyatda «metalkəsən qələm», bəzisində isə sadəcə «metal qələm» kimi də işlənmişdir. Lakin «Azərbaycan dilinin orfoqrafiya lüğəti» və «Rusca-azərbaycanca lüğət»də isə iskənə yazılmışdır. Həm lüğətlərə, həm də etnoqrafik məlumatlara əsasən bu termin əsərdə iskənə kimi işlədilir.

Arxeoloji qazıntılar zamanı iskənələr Beyləqandan da tapılmışdır. Onlardan biri kiçik, digəri isə böyükdür. Beyləqan alətləri IX—XIII əsrlərə aid edilir[23]. Belə alət Dvin qazıntıları zamanı da aşkar olunmuşdur[24].

**Zindan.** Bakı qazıntılarından hələlik dəmir zindan tapılmamışdır. Lakin haqqında danışdığımız metal ilə işləyən sənətkarları bu alətsiz təsəvvür etmək olmaz. Ona görə də etnoqrafik materiallara əsasən zindan haqqında ümumi məlumat verməyi lazım bildik. Metalişləmənin müxtəlif sahələrində işlədilən zindandan əşyaları döyüb yastılamaq, uzatmaq, genəltmək və s. üçün istifadə olunur. Etnoqrafik məlumatlara görə zindanlar müxtəlif olur. Bəzi zindanlar dördtilli kəsik piramida formasında olub işlək səthi 25X25 sm, hündürlüyü 15 sm-dir. Belə alət nisbətən iri əşyalar döymək üçündür. Onların bəzisi isə buynuzludur. Həmin zindanlardan alət və məişət əşyalarını əymək, qatlamaq, ümumiyyətlə müxtəlif formalara salmaq üçün istifadə olunur. Göstərilən zindanlardan başqa nalbəndlərin də nal və mıx hazırlamaq üçün ayrıca zindanları olur.

Bakıda 1974-cü il qazıntıları zamanı maraqlı bir tunc qab qırığı əldə olunmuşdur. Qabın qulpu və ağzının bir hissəsindən ibarət olan bu tapıntı diqqəti xüsusilə cəlb edir. Onun ağzı bərabərində üfüqi istiqamətdə düzəldilmiş qulpu xüsusi formaya malikdir. Qıraqları girintili-çıxıntılı olan bu qulpun üzərində beş ədəd dairəvi deşik vardır. Həmin qab tökmə üsulu ilə hazırlanmışdır. Qeyd etməliyik ki, belə bir qabın bütöv halda tapılmış oxşarları Qəbələ[25] və Beyləqandan[26] da məlumdur. Bakı qabı onlara əsasən bərpa edilmişdir (III tablo, 10). Onun təxmini bərpa olunmuş diametri 5 sm-dir. Hər üç qab quruluşu etibarilə eyni olub yalnız qulplarının formasına görə bir qədər fərqlənirlər. Onların eyni məqsəd üçün istifadə olunmasına şübhə yoxdur. Qulpunun əks tərəfindəki çıxıntının nov şəklində düzəldilməsi bu qabların yalnız tökmək üçün işlədildiyini sübut edir. Məhz bu xüsusiyyət onun sənətkar aləti olduğunu təsdiq edir. Arxeoloji qazıntılar nəticəsində gildən kəsik konus formalı sənətkar aləti də tapılmışdır[27]. Bu bir növ kiçik qırsqala (tiql) oxşardır. Gildən düzəldilmiş belə bir zərgər aləti Qəbələdən də aşkar edilmişdir[28].

## TƏSƏRRÜFAT VƏ MƏİŞƏT ALƏTLƏRİ

Bakı qazıntılarından sənətkar alətlərilə bərabər xeyli təsərrüfat və məişət alətləri də aşkar edilmişdir.

**Çapacaq.** 1966-cı ildə İçərişəhərdə aparılan arxeoloji qazıntılar zamanı tapılan dəmir çapacaq orijinal quruluşa malikdir[29]. Çapacağın sulğuncu və tiyəsinin uc hissələri qırılmışdır (I tablo, 3). Sulğuncun en kəsiyi lentvarı formadadır. Görünür, onun hər iki tərəfinə ağac dəstək bənd edilmişdir. Bu dəmir alətin üzərini qalın pas örtmüşdür. Güclü korroziyaya uğramağına baxmayaraq, çapacaq öz formasını saxlamışdır. İri və ağır düzəldilmiş bu çapacaq məişətdə işlədilən əsas alətlərdən biridir. Bəhs etdiyimiz çapacaq orijinal quruluşuna və həcminə görə çox ehtimal ki, heyvanın ətini parçalayıb ayırmaq üçün istifadə edilən qəssab alətlərindən biri olmuşdur.

Məişətdə çapacaqdan hələ antik dövrdə istifadə edilmişdir. Belə ki, antik dövrə aid Nüydi abidəsindəki qazıntılardan bir neçə çapacaq nümunəsi tapılmışdır. Nüydi çapacaqları e. ə. II və eramızın I əsrlərinə aiddir[30].

Həmin çapacaqların sulğuncunun quruluşundakı forma fərqinə baxmayaraq, onlardan məişətdə eyni məqsəd üçün istifadə olunmuşdur. Çox güman ki, orta əsrlərə aid olan çapacağın quruluşundakı müəyyən dəyişiklik sonrakı texniki təkmilləşmə ilə əlaqədardır.

**Dəhrə.** İçərişəhərdəki qazıntılar zamanı bir neçə dəhrə qırıqlarına da təsadüf olunmuşdur. Onların içərisində yalnız birinin qırığı diqqəti cəlb edir (I tablo, 5). Onun 15 sm uzunluğunda uca yaxın hissəsi salamat qalmışdır. Dəhrənin uc tərəfdən eni 2, ortaya yaxın isə 3,5 sm-dir. Məişətdə qədim zamanlardan başlayaraq, dəhrədən bir kəsər aləti kimi istifadə edilmişdir. Ondan kənd təsərrüfatında — bağçılıqda, əkin yeri təmizləməkdə, ağac budamaqda, kol qırmaqda və bu kimi işlərdə geniş istifadə edilmişdir. Etnoqrafik müşahidələrə əsasən demək olar ki, özünün qədim formasını saxlayan bu alət indi də öz əhəmiyyətini itirməmiş, hər bir ailənin məişətində istifadə olunan əsas kənd təsərrüfatı alətlərindən biri kimi qalmaqdadır.

Qədim dövrə aid dəmir dəhrələr Azərbaycanın müxtəlif rayonlarından tapılmışdır. Bu səhətdən İsmayıllı[31] rayonunun Tircan kəndi yaxınlığından tapılan dəmir dəhrə diqqəti cəlb edir. O, formasına görə müasir dəhrələrdən fərqlənmir. Tədqiqatçı Ö. Ş. İsmizadə həmin alətlərin qədimdə kənd təsərrüfatında və məişətdə

---

[23] *Ибрагимов Ф. А.* Металлообрабатывающее ремесло в средневековых городах Азербайджана в IX—XIII вв. Автореф., Баку 1969, с. 9; ƏhmədovQ. M.Orta əsr Beyləqan şəhəri, Bakı, 1979. s. 54.
[24] *Кафадарян К. Г.* Город Двин и его раскопки. Ереван, 1952, с. 158 — 290.

[25] Qədirov F. V. Qəbələ şəhərində zərgərlik sənətinə dair «Azərb. SSR EA Xəbərləri» (tarix, fəlsəfə və hüquq seriyası), 1983, № 2, s. 71 — 73.
[26] Əhmədov Q. M. Göstərilən əsəri, s. 54, 33-cü şəkil «b».
[27] İbrahimov F. Ə. Örənqalada Böyük şəhərin şimal-qərb qala divarındakı arxeoloji qazıntılar. Azərb. EA TİEA, fond 1, siyahı 13, iş 5365.
[28] Qədirov F. V. Göstərilən əsəri.
[29] *Исмизаде О. Ш.* О результатах археологического исследования территории «Ичари Шахар» в 1966. AMM, VIII cild, Bakı, 1976, s. 179.
[30] *Алиев И., Османов Ф. Л.* Бассейн рек Геокчай-Гирдманчай-Ахсучай в античное время. Советская археология, № 1, М., 1975, с. 190.

[31] *Исмизаде О. Ш.* Археологические находки в Исмаиллинском районе. Изв. Азербайджанского филиала АН СССР, № 4, 1941, с. 25—28.

işlədilən əsas əmək alətlərindən biri olduğunu qeyd edir[32]. Orta əsrlərə aid belə dəhrə nümunəsi Gürcüstandan da məlumdur[33].

**Bıçaqlar.** Arxeoloji tapıntılar içərisində bıçaqlar çoxluq təşkil edir. Bu isə başqa əmək alətlərinə nisbətən bıçağın daha çox vəzifə daşıması ilə əlaqədardır. Dəmir bıçaqlardan orta əsrlərdə universal alət kimi məişətdə, sənətkarlıqda, ovçuluqda, hərbi sahədə və s. işlərdə geniş istifadə edilmişdir. İri bıçaqlar isə bağçılıq təsərrüfatında (ağac budamaqda və s.) geniş tətbiq olunmuşdur.

İnkişaf etmiş orta əsrlərdə dəmir bıçaqların istehsal texnologiyası daha da təkmilləşmişdir. Başqa kəsər alətlər kimi dəmir bıçaqların da ağzını polad təbəqə qaynaq edilməklə onun işlək qabiliyyəti dəfələrlə artırılmışdır.

Qazıntılardan əldə olunan bıçaqlar güclü korroziyaya uğradığından tiyələrinin formasında müəyyən dəyişikliklər əmələ gəlmişdir. Onlar həm də uzun müddət istifadədə olduğundan tiyələrinin kəsər tərəfi iş zamanı yeyilərək nazilmişdir. Lakin qeyd etməliyik ki, qazıntılardan tapılan orta əsr bıçaqlarının qalmış formaları müasir kustarların hazırladığı bıçaqlardan bir o qədər də kəskin fərqlənmir. Tədqiqat nəticəsində tək-tək hallarda bıçaqlar bütöv tiyə, əksər hallarda isə ya tiyəsinin və ya sulğuncunun tiyə ilə birlikdə qırığı tapılır. Əldə edilən bıçaqların əksəriyyətinin sapı saxlanılmamışdır. Bəzi bıçaqların sulğuncunda ağac izinin qalması isə bıçaqların dəstəyinin əsasən ağacdan düzəldiyini söyləməyə əsas verir. Lakin qazıntılar zamanı heyvan buynuzundan hazırlanmış bıçaq dəstəyi yarımfabrikatların və kiçik bıçaq (II tablo, 1) dəstəyinin tapılması bıçaqların sapının həm də sümükdən düzəldilməsini təsdiq edir.

Bakı qazıntılarından tapılan bıçaqlar ölçülərinə görə kiçik, orta və böyük həcmdə olub formalarına görə müxtəlifdirlər. Onların bir qrupunun tiyəsinin sivri ucu kəsər tərəfə (II tablo, 3, 5, 8), digər qrupununku isə arxaya əyləmli (çevrilmiş) düzəldilmişdir (II tablo, 4, 6, 7,). Az təsadüf olunan başqa bir qrupu isə formaca bir növ xəncərə oxşayır. Həmin bıçaqların tiyəsi hər iki tərəfdən uca doğru getdikcə sivriləşir (II tablo, 10). Görünür, belə bıçaqlardan həm də soyuq silah kimi istifadə olunmuşdur.

Dvindən tapılan bu növ bıçaqların da hərbdə istifadə edildiyi ehtimal edilir[34]. Bıçaqların sulğuncunun en kəsiyi dairəvi və ya dördtilli olub uca doğru getdikcə sivriləşir ki, bu da onların dəstəyə saplanmasını asanlaşdırır. Ümumiyyətlə, bıçaqlar sənətkarlığın müxtəlif sahələrində geniş istifadə edilən alətlərdəndir. Tapıntılar bakılıların iqtisadi həyatında bu sənətkarlığın xüsusi yer tutmasını göstərən dəlillərdən biri kimi mühüm əhəmiyyət kəsb edir.

**Bizlər.** Məişətdə və bəzi sənətkarlıq sahələrində işlədilən alətlərdən biri də bizdir. Papaqçı, pinəçi, dabbağ və palanduzçunu bu alətsiz təsəvvür etmək çətindir. Arxeoloji qazıntılar nəticəsində belə metal alətlərin əksər hallarda qırıqları tapılır. Dəmir bizlərin antik dövrdə Azərbaycanda geniş yayıldığı Nüydi qazıntılarından bəllidir[35].

Bakıdakı qazıntılar zamanı bir ədəd dəstəksiz biz tapılmışdır (III tablo, 1). Dəmirdən düzəldilmiş bu alətin ucu qırılmışdır. Bizin uc və uca yaxın tərəfinin en kəsiyi dairəvi, qalan hissəsininki isə lentvarıdır. Bu hissənin üstündə ağac izləri aydın bilinir. Göründüyü kimi, onun dəstəyi ağacdan olmuşdur. Çox güman ki, dəstəyin içərisində möhkəm durmaq, burulmamaq üçün bizin tiyəsi yastı düzəldilmişdir. Müasir dövrdə məişətdə geniş işlədilən belə alətlərin dəstəyi də ağacdandır. Onun qalmış uzunluğu 6 sm-dir. Eyni ilə buna oxşar bir biz Beyləqandan XII—XIII əsrin əvvəllərinə aid mədəni təbəqədən tapılmışdır[36].

Bakıdan tapılan digər biz isə əvvəlkindən fərqlənir. Onun dəstək hissəsi güclü korroziyaya uğradığından qopub tökülür (III tablo, 2). Tiyəsinin en kəsiyi dairəvi olan kiçik hissəsi qalmışdır. Ucu qırıldığından ölçüsünü bərpa etmək mümkün olmadı.

Bakıdan 1970-ci ildə tapılan bizin tiyəsi nisbətən yaxşı qalmışdır (III tablo, 3, 4). Onun qalmış uzunluğu 7 sm-dir. En kəsiyi dairəvi olan məftilə oxşar tiyə uca doğru getdikcə sivriləşir. Bu bizin dəstəyi də yəqin ki, ağacdan olmuşdur.

**Oymaqlar.** Arxeoloji qazıntılar nəticəsində əmək alətlərinin işlənilməsi üçün rahatlıq yaradan yardımçı əmək vasitələri də aşkar olunmuşdur. Onlardan mis oymaqları qeyd etmək olar. Bakıdan bir neçə oymaq nümunəsi tapılmışdır (III tablo, 5—9).

Mis təbəqədən döymə üsulu ilə düzəldilmiş bu oymaqların gövdələri silindr şəklində olub, əsasən müasir oymaqların formasına oxşardır. Bakı oymaqlarının quruluşundakı fərq ucluq hissəsinin müxtəlif formada düzəldilməsindədir. Tikiş zamanı iynə və ya qıyığın keçirilməsinə kömək etmək üçün oymaq üzərinə düzülmüş batıq nöqtələr də müxtəlifdir. Onların bəziləri saya, bəziləri isə rombvarı şəkildə düzülmüşdür. Barmağa keçirilən hissəsinin diametri 1,8—2 sm-dir. Oymaqların bəzisinin ağzının qıraqları köbər şəklində üstünə

[32] *Исмизаде О. Ш.* Ялойлутепинская культура, Бакы, 1956, с. 25, XI табло, I.
[33] Gürcüstan materialları ilə Gürcüstan Tarix Muzeyində XI — XIII əsrlərə aid Dmanisi və Qudarexi materialları nümayiş etdirilən zalda tanış olduq.

[34] Kafadaryan K.Q. Göstərilən əsəri, s.290.
[35] Osmanov F.L. Орудия производства из раскопок Нюди "Azərb. SSR EA Xəbərləri" (tarix, fəlsəfə və hüquq seriyası) 1984, № 1, s. 66-74.
[36] Örənqala, çöl qeyd siyahısı № 197, 1959-cu il.

qatlanmışdır. Oymaqlardan bir neçəsinin oturacağı oval, qalanlarınınkı isə konusvarı formada düzəldilmişdir. Oturacağı ovalvarı olanlardan birinin həm gövdəsi, həm də üzəri batıq nöqtələrlə (III tablo, 5), digərinin isə gövdəsi rombvarı, oturacağı isə batıq nöqtələrlə naxışlanmışdır (III tablo, 6).

Ucluğu konusvarı formada düzəldilən iki ədədinin üzəri nisbətən səliqəsiz nöqtələnmişdir (III tablo, 8). Belə ucluqlu bir oymaq seçilir. Bunun yalnız orta hissəsi batıq nöqtələrlə simmetrik şəkildə düzəldilmişdir (III tablo, 9). Oymağın həm oturacağı, həm də ağzının qırağı hamardır.

Mis oymaqlar Azərbaycanın başqa orta əsr abidələrindən də tapılmışdır[37].

---

[37] Örənqala, çöl qeyd siyahısı № 23, 1960-cı il.

## SİLAHLAR

Orta əsrlərdə tez-tez baş verən xarici basqınlar və daxili feodal ara müharibələri şəhər sənətkarlığında silah istehsalının xüsusi yer tutmasına səbəb olmuşdur. Silahların hazırlanmasına mahir ustalar cəlb olunur və kütləvi şəkildə müxtəlif növ silahlar istehsal edilirdi. Ona görə də orta əsr abidələrindən arxeoloji qazıntılar nəticəsində başqa maddi mədəniyyət qalıqları ilə birlikdə xeyli silah növləri də aşkar edilir.

Bakı qazıntılarından tapılan silah nümunələri şəhər sənətkarlığı və həmin dövrün döyüş texnikası haqqında müəyyən təsəvvür yaratmağa imkan verir. Bakı silahlarını əsasən iki qrupa bölmək olar: hücum və müdafiə silahları.

Məlum olduğu kimi orta əsrlərdə hücum silahlarından ox-yay, nizə, xəncər, qılınc, hərbi bıçaq, döyüş yabası, toppuz; müdafiə silahlarından isə zireh, dəbilqə, qalxan və s. geniş yayılmışdır.

## HÜCUM SİLAHLARI

Bu silah növünə aid olan ox-yay hələ ibtidai icma dövründə geniş yayılmışdır. Bəlli olduğu kimi, qədimdə ovçuluqda istifadə olunan bu silah sonralar əsl döyüş alətinə çevrilmişdir.

Klassiklər ox və kamanın ixtirasını yüksək qiymətləndirmişlər. F. Engels yazır: «Barbarlıq üçün dəmir qılınc və mədəniyyət üçün odlu silah nə idisə, vəhşilik dövrü üçün də kaman və ox eyni şey idi»[38].

Məlum olduğu kimi, bu silahın metal ucluğundan başqa qalan hissəsi ağacdan düzəldildiyi üçün uzun müddət torpaqda qaldıqda çürüyür. Beyləqandan tapılan XII—XIII əsrin əvvəllərinə aid şirli qablar üzərindəki ox-yayla ov səhnələri bu cəhətdən diqqəti cəlb edir[39]. Təsvirdə kaman və ox qabı aydın seçilir.

Arxeoloji qazıntılar zamanı Bakıdan tapılan ox uclarının çoxunun formasının saxlanılması onların haqqında müəyyən fikir söyləmək işini asanlaşdırır. Lakin əksər hallarda tiyəsi və bəzən isə sulğuncunun uc tərəfi qırılmış olur. Görünür, bu hissələr nazik olduğu üçün və uzun müddət torpaqda qaldığından güclü paslanma nəticəsində ovulub tökülür. Belə vəziyyət Bakıdan tapılan ox uclarının bütöv ölçüsünü söyləmək işini çətinləşdirir.

Ox ucları formalarına və ölçülərinə görə müxtəlifdirlər. Onların bir qrupunun ucluğu yarpaqvarı (IV tablo, 2—8), digərininki isə rombvarıdır (IV tablo, 10—12). Yarpaqvarı formalar çoxluğu təşkil edir. Onların en kəsiyi ovaldır. Sulğunclarının en kəsiyi isə dairəvi olub uca doğru getdikcə sivriləşir. Lakin yarpaqvarı formaların bir qrupunun sulğuncu əvvəlkilərdən fərqli olaraq qısadır (IV tablo, 3, 4, 5). Tiyəsi rombvarı formalı olanların da en kəsiyi ovaldır. Yarpaq və rombvarı formalı ox uclarının ən kiçiyi 4, 5, ən böyüyü isə 9 sm uzunluğundadır.

Bəhs etdiyimiz ox uclarının oxşarları həm Azərbaycanın orta əsr şəhərlərindən[40] və həm də qonşu Ermənistan[41], Gürcüstan[42] və Orta Asiyadan[43] da məlumdur.

Bakıdan tapılan silahların içərisində bir qrup ox ucları da vardır ki, onlar öz quruluşlarına görə əvvəlkilərdən fərqlənirlər (IV tablo, 13—15). Bu növ ox uclarının sulğuncu uzundur. Tiyəsi isə yumru olub konusvarı formada uca doğru getdikcə sivriləşir. Onların bir neçəsinin həm tiyəsi, həm də sulğuncunun en kəsiyi dairəvidir. İçərisində sulğuncu tilli olanlar da vardır ki, bu da müasir tüfəng süngüsünün formasını xatırladır. Bəhs etdiyimiz bu ox uclarının uzunluğu 8,5—14 sm-dir. Qeyd etməliyik ki, sulğuncu uzun olan belə ox uclarının mənşəyi qədimdir[44].

Bakıdakı arxeoloji qazıntılar zamanı qalın göndən iki ədəd—yarpaqvarı (IV tablo, 1) və rombvarı (IV tablo, 11) şəkildə kəsilib düzəldilmiş ox ucu formaları aşkar edilmişdir. Bu tapıntılar çox ehtimal ki, sənətkar tərəfindən əvvəlcədən nəzərdə tutulmuş şəkildə ox ucu forması hazırlamaq üçün ülgü rolunu oynamışdır. Qazıntı zamanı ox ucu ülgülərinin tapılması isə həmin dövrdə Bakıda bu növ silahların kütləvi hazırlandığını təsdiq edir.

Maraqlı cəhətlərdən biri yuxarıdakı təsvirdən aydın olduğu kimi, Bakıdan tapılan ox uclarının göstərilən ülgülər formasında—yarpaqvarı və rombvarı şəkildə olmasıdır. Bu fakt həmin növ ox uclarının Bakıda hazırlanmasını söyləməklə bərabər orta əsrlərdə geniş yayıldığını da ehtimal etməyə əsas verir. Bakı

[38] Marks K., Engels F. Seçilmiş əsərləri, II c., Bakı., 1953. s.184.

[39] *Якобсон А. Л.* Художественная керамика Байлакана, МИА СССР, № 67, М.—Л., 1959, с. 262, IX табло; *Иессен А. А.* Пять чаш из Байлакана. Исследования по истории культуры народов Востока. М.—Л., 1960, с. 94, рис. 5.

[40] İbrahimov F. Ə. Göstərilən əsəri. s. 11. Müq. et. Əhmədov Q. M. Göstərilən əsəri, s. 54.

[41] *Абрамян В. А.* Ремесла в Армении в IV — XVIII вв. Ереван, 1956, рис. 23.

[42] Gürcüstan materialları ilə Gürcüstan Dövlət Tarix Muzeyində "XI-XIII əsrlərə aid Dmanisi və Qudarexi materialları nümayiş etdirilən zalda tanış olduq.

[43] *Литвинский Б. А.* Среднеазиатские железны, наконец, стрел, СА № 2. 1965.

[44] Qazıyev S. M. Mingəçevirdən tapılmış bəzi silahlardan. AMM. II cild. 1951, s. 13, III tablo, 14, 15.

qazıntılarından əldə edilən rombvarı ülgünün eyni oxşarı olan ox ucunun Ermənistandan tapılması da diqqəti cəlb edir[45].

Qeyd etməliyik ki, belə rombvarı ox ucu həm orta əsr[46], həm də qədim[47] abidələrdən məlumdur. Bakıdan tapılan rombvarı ülgü yalnız bir tərəfinin—ucunun azca uzadılmış şəkildə olması ilə onlardan fərqlənir.

**Nizələr.** Orta əsrlərdə geniş yayılmış silah növlərindən biri də nizələrdir. Azərbaycanın orta əsr şəhərlərindən arxeoloji qazıntılar nəticəsində xeyli, həm də müxtəlif formalı nizə ucluqları əldə edilmişdir. Lakin Bakıdakı tədqiqatlar nəticəsində cəmi bir neçə nizə ucluğu tapılmışdır. Onlardan yalnız ikisinin forması yaxşı qalmışdır. Bu nizə uclarının hər ikisi konusvarıdır. Biri kiçik konus şəklindədir (V tablo, 1). Onun uzunluğu 4,5 sm, ağac sap keçirilən hissəsinin diametri 1,7 sm-dir.

Bəhs etdiyimiz nizənin eyni oxşarı Beyləqan qazıntıları zamanı tapılmışdır[48]. Onlar yalnız ölçüsünə görə bir-birindən fərqlənir. Beyləqandan tapılan nizə ucluğunun uzunluğu 11 sm-dir. IX—XIII əsrlərə aid belə konusvarı nizə ucları Dvin qazıntılarından da məlumdur[49].

1976-cı ildə 11-ci qazıntı sahəsindən tapılan digər nizə ucu isə əvvəlkindən fərqli olaraq uzadılmış konusu xatırladır (V tablo, 2). Onun həm sivri uc hissəsi, həm də küp tərəfinin ağzı qırılmışdır. Qalmış uzunluğu 15 sm, ağzının diametri isə 3 sm-dir. Nizə ucluğunun qırılan hissələrini də nəzərə alsaq, onun xeyli böyük olduğunu görərik. Nizənin borusu ilə ucluğunun birləşdiyi yerə enli halqavarı sağanaq qaynaq edilmişdir. Görünür, nizə iri olduğu üçün onun boru ilə ucluğunu möhkəmlətmək və ya sınmış ucluğu boruya yapışdırmaq məqsədilə belə edilmişdir.

Böyük nizə ucları Beyləqandan da tapılmışdır[50]. Onların bəziləri konusvarı, bəziləri isə yarpaqvarı formadadır.

Nizə uclarının dəstəyi ağacdan olmuşdur. Uzun müddət torpaqda qaldığından ağac çürümüş və qazıntı zamanı yalnız metal ucluqlar tapılmışdır. Adətən ağac dəstəklər nizənin borusuna keçiriləndən sonra möhkəm olmaq üçün ya mıx və yaxud dəmir sağanaq vasitəsilə sıxılıb bərkidilir.

**Qılınc və xəncərlər.** Orta əsrlərdə döyüş silahı kimi qılınc və xəncərdən geniş istifadə edilmişdir. Lakin təəssüflə deməliyik ki, Bakıda aparılan arxeoloji qazıntılar nəticəsində belə silahlara az təsadüf olunur. Tədqiqat zamanı əldə edilənlər əsasən kiçik qırıqlardan ibarətdir. Güclü korroziyaya uğrayaraq pis vəziyyətdə qalmış bu qırıqlar həmin növ silahlar haqqında müqayisəli şəkildə geniş danışmağa imkan vermir.

1967-ci ildəki qazıntılar zamanı qədim mədəni təbəqədən 4,3 metr dərinlikdən bir ədəd xəncər tiyəsi tapılmışdır (V tablo, 5).Onun hər iki tərəfi iti olub uca doğru getdikcə sivriləşir. Sulğuncunun ucu qırılmışdır. Qalmış uzunluğu 22 sm-dir. Üzərini pas örtsə də formasını saxlamışdır[51].

Tapılan qılınc hissələri əsasən tiyələrinin kiçik qırıqlarından ibarətdir. 10—15 sm uzunluğunda və 5—6 sm enində tapılan hissələr isə belə silahların bütöv formasını bərpa etməyə imkan vermir.

Orta əsr Ani[52] şəhərindən əldə olunan X—XI əsrlərə aid dəmir qılınc bu cəhətdən diqqəti cəlb edir. Qılınc dəstəyi ilə birlikdə bütöv tapılmışdır. Onun tiyəsinin hər iki tərəfi iti olub xəncər kimi uca doğru getdikcə sivriləşir. Dəstək ilə sulğuncun birləşdiyi yer kəmər şəklində çıxıntılıdır. Sulğuncun uc hissəsi isə yumru düzəldilmişdir. Bu tapıntı tədqiqat dövründə qılıncın formasını bərpa etmək üçün çox qiymətlidir. Çox güman ki, Bakıdan tapılan qılınc da belə formada olmuşdur.

Orta əsrlərdə əlbəyaxa döyüş silahı kimi əsasən qılınc və xəncərdən istifadə olunmuşdur. IX əsrdə Xürrəmilərin əsasən qılınc və xəncərlə silahlanmaları haqqında mənbələrdə məlumat vardır[53]. Orta əsr Beyləqan şəhərinin naib və mutofisi Məsud ibn Namdar bir döyüş səhnəsini təsvir edərkən döyüşçülərin qılınc və xəncərlə silahlanmasını xüsusi qeyd edir[54].

Bakıda arxeoloji qazıntılar nəticəsində aşkar edilən XIV—XVII əsrlərə aid məzar daşlarının üzərində ox, kaman, qalxan və s. silahlarla yanaşı, qılınc və xəncər rəsmləri də təsvir edilmişdir[55]. Döyüşçülərə aid edilən bu başdaşılarındakı silahlar içərisində qılınc və xəncərin olması faktı həmin dövrdə ordu heyətində bu növ silahlardan kütləvi şəkildə istifadə edilməsi haqqındakı tarixi mənbələrin məlumatını təsdiq edir. Bu silahlar

---

45 Abramyan V. A. Göstərilən əsəri, 23-cü şəkil.
46 Örənqala çöl qeydləri.
47 Qazıyev S. M. Göstərilən əsəri, s. 14, III tablo, 22.

48 İbrahimov F. Ə. IX — XIII əsrlərdə Azərbaycan şəhərlərində metalişləmə sənəti, Azərb. EA TİEA, fond 1, siyahı 15, iş 6600, s. 91. VIII tablo, 4.
49 *Абрамян В. А.* Оружие средневековой Армении, тр. ГИМ Армении, том II, 1949; yenə onun: Ремесла в Армении в IV—XVIII вв., Ереван, 1956.
50 İbrahimov F. Ə. Göstərilən əsəri, s. 91, VIII tablo, 1, 5, 6.

51 İsmizadə Ö. Ş., Qədirov F. V. 1967-ci ildə Bakıda aparılan arxeoloji qazıntının hesabatı. Azərbaycan EA Tarix İnstitutunun elmi arxivi, 0—09; № 18: 0—09/2; № 19.
52 *Абрамян В. А.* Ремесла в Армении...,. 25-ci şəkil.
53 «Azərbaycan tarixi». I cild, 1958, s. 115.
54 *Масуд йбн Намдар.* Сборник рассказов, писем и стихов. Факсимиле текста,-предисловие и указатели В. М. Бейлиса. М., 1970; Azərbaycan EA Tarix İnstitutunun elmi arxivi, fond 1, siyahı 14, iş 6126 (tərcümə V.M. Beylisindir), s. 174 a — 175 a, 142 — 143.
55 İsmizadə Ö. Ş., Ciddi H. Ə. Bakı, Qız qalası yaxınlığındakı abidədən tapılan məzar daşları haqqında, AMM, VIII cild, Bakı, 1976.

adətən dəstəklə birlikdə hazırlanır və dəstəyinin üzərinə ağac və ya sümükdən sap bərkidilir. Belə dəmir dəstək Beyləqandan tapılmışdır[56].

1938—1939-cu illərdə Şirvanşahlar sarayının həyətində Seyid Yəhya Bakuvinin məqbərəsi yanında aparılan arxeoloji qazıntılar zamanı 4 metr dərinlikdə aşkar edilən quyudan xeyli metal alətlər tapılmışdır. Onların içərisində dəstəyi əqiqdən bəzədilmiş qılınc və ya xəncərə aid dəstək də vardır. Onun üzəri parlaqdır. Dəstəyinin üstü qiymətli daşdan olan bu qılınc və ya xəncər çox güman ki, zadəganlara, ümumiyyətlə, yüksək rütbəli hərbçilərə məxsus olmuşdur. Tədqiqatçı V. N. Leviatov maddi mədəniyyət qalıqlarına əsasən bu tapıntıları XIII—XIV əsrlərə aid edir[57].

Azərbaycanda xəncər və qılınc istehsalının son zamanlara qədər davam etdirilməsi xalqın bu silahlardan əsrlər boyu geniş istifadə etdiyini göstərir.

**Hərbi bıçaqlar.** Bakıda aparılan arxeoloji qazıntılardan çoxlu bıçaq aşkar edilmişdir. Bu, heç də təsadüfi deyildir. Məlum olduğu kimi, universal bir alət olan bıçaqlardan müxtəlif məqsədlər üçün geniş istifadə edilir. Bakıdan tapılan bıçaqların bir qrupu isə təsərrüfat və məişət bıçaqlarından fərqlənir. Onlar öz formalarına görə xəncəri xatırladır. Belə bıçaqlardan biri 1967-ci ildə I qazıntı sahəsindən tapılmışdır. Bıçaq ilk baxışda xəncərin formasını xatırladır. Lakin onun bir tərəfi iti, digəri isə nisbətən qalındır. Bıçağın tiyəsi uca doğru getdikcə eyni bərabərdə sivriləşir. Onun eni 2,5 sm-dir (V tablo, 3).

1968-ci ildə əldə olunan digər dəmir bıçaq da əsasən əvvəlkinə oxşardır. Yalnız ölçüsünə və ucunun daha iti olmasına görə fərqlənir. Uzunluğu 19, eni isə 2 sm-dir.

Şəhərdəki 11-ci qazıntı sahəsindən 1969-cu ildə aşkar edilən bıçaq diqqəti xüsusilə cəlb edir (V tablo, 4). Onun həm tiyəsinin, həm də sulğuncunun ucu qırılmışdır. Əvvəlkilərdə olduğu kimi, bir tərəfi iti, digəri isə qalındır. Lakin bıçağın tiyəsinin orta hissəsində zolaq şəklində bir az qabarıq formada olması və uca yaxın tərəfdə konusvarı şəkil alması onu əvvəlkilərdən fərqləndirir. Onun qalmış uzunluğu 16, eni 2 sm-dir. Təsvir etdiyimiz bıçaqların sulğuncunun en kəsiyi dairəvi olub, uca doğru getdikcə nazikləşir ki, bu da onların sapa keçirilməsini asanlaşdırır. Bıçaqların sapı ağac və ya sümükdən olmuşdur.

Qeyd etməliyik ki, təsvir etdiyimiz bıçaqların forması xəncərə bənzəyir. Bizə elə gəlir ki, onlardan soyuq silah kimi istifadə olunmuşdur. Belə bıçaqlar həm Azərbaycanın orta əsr şəhərlərindən[58], həm də Ermənistanın Dvin[59] şəhərindən tapılmışdır. Tədqiqatçı K. Q. Kafadaryan da onların hərb bıçağı olduğunu ehtimal edir.

Qeyd etməliyik ki, xəncər tipli hərbi bıçaqların mənşəyi qədimdir. Mingəçevirdən bu növ xeyli bıçaq tapılmışdır[60]. Tədqiqatçılar həmin bıçaqların xəncər rolu oynadığını göstərərək, xəncərin belə bıçaqların sonrakı inkişafı ilə əlaqədar olaraq yarandığını göstərirlər[61].

**Toppuzlar.** Arxeoloji qazıntılar nəticəsində hələlik Bakıdan toppuz tipli silaha təsadüf edilməmişdir. Lakin 1964-cü ildə Bakıda Qız qalası yaxınlığındakı arxeoloji qazıntılar zamanı tapılan başdaşıları[62] bu məsələnin həllinə kömək edir. Qəbirlərin yanında yerləşən bu başdaşılarının üzərində xeyli yazı və zəngin naxışlar vardır. Başdaşıları Abşeronun əhəng daşından hazırlanmışdır. Müxtəlif naxış və yazılar həkk etmək üçün bu növ daşlar əlverişli sayılır[63]. Orta əsr ustalarının sənətkarlıq məharətini nümayiş etdirən bu gözəl sənət əsərləri abidənin dövrünü aydınlaşdırmaq cəhətdən də qiymətlidir.

Qeyd etməliyik ki, haqqında danışılan kişilərə məxsus iki başdaşının üzərində çoxlu, həm də müxtəlif növ silah rəsmi vardır. Onlardan yəhərli at rəsmi olan daşda qılınc, xəncər, toppuz, digərində isə ox, kaman, qılınc və qalxan təsvir edilmişdir. Tədqiqatçılar üzərində at və çoxlu silah şəkli olan bu qəbirlərdə dəfn edilənlərin döyüşçü olduğunu güman edirlər[64]. Biz də belə hesab edirik ki, başdaşılarından biri atlı, digəri isə piyada döyüşçüyə aiddir. Silahların içərisində toppuzun olması isə orta əsrlərdə Bakıda bu silah növündən də istifadə edildiyini göstərir. Toppuzun yalnız atlı döyüşçüyə aid olan başdaşında təsviri isə maraqlıdır. Görünür, toppuzu bütün döyüşçülər deyil, ancaq süvarilər və ya başçılar gəzdirə bilərmiş.

Arxeoloji qazıntılara əsasən məzar daşları XIV— XVII əsrlərə aid edilir[65].

---

[56] İbrahimov F. Ə. Göstərilən əsəri s. 94; Örənqala çöl qeydi, № 371, 1961: Əhmədov M, Göstərilən əsəri, s. 53.

[57] Leviatov V. N. Göstərilən əsəri, s. 131.
[58] İbrahimov F. Ə. Göstərilən əsəri, s. 97, X tablo, 1, 2, 6; Örənqala çöl siyahısı № 110, 1963-cü il.
[59] Kafadaryan K. Q. Göstərilən əsəri, s. 290.
[60] Qazıyev S. M. Göstərilən əsəri, s. 11.
[61] Yenə orada, s. 12.

[62] İsmizadə Ö. Ş., Ciddi H.Ə. Göstərilən əsər, s. 187.
[63] Nemətova M. S. Şirvanın XIV — XVI əsrlər tarixinin öyrənilməsinə dair, Bakı, 1959; yenə onun: Nuxa Xan qəbiristanlığındakı başdaşıların kitabələri haqqında. «Azərb. SSR EA Xəbərləri», № 6, 1961, s. 19.
[64] İsmizadə Ö. Ş., Ciddi H. Ə. Göstərilən əsər, s.196.
[65] Yenə orada, s. 187, 197.

## MÜDAFİƏ SİLAHLARI

Qeyd etməliyik ki, Bakıdakı arxeoloji qazıntılar zamanı hücum silahlarından savayı, müdafiə silahlarına aid xeyli qırıqlar da tapılmışdır. Müdafiə silahları nazik təbəqəli materialdan hazırlandığı üçün tez paslanaraq formasını dəyişmişdir.

Ümumiyyətlə, Azərbaycanın orta əsr şəhərlərindəki arxeoloji qazıntılar nəticəsində müdafiə silahlarının qalıqlarına az təsadüf olunur. Bu da, şübhəsiz, həmin materialların torpaqda pis qalması ilə əlaqədardır. Lakin bunlar orta əsrlərdə Bakıda müdafiə silahları haqqında faktik material əsasında danışmağa imkan verməsə də, belə silahların varlığını inkar etmir. Şübhəsiz, şəhərdə gələcəkdə aparılacaq arxeoloji tədqiqatların nəticəsində müdafiə silahları da aşkar ediləcəkdir.

Hazırda isə müxtəlif mənbə və materiallara əsaslanaraq, Bakının orta əsr müdafiə silahları haqqında ümumi fikir söyləmək mümkündür. Müdafiə silahlarına zireh, qalxan, dəbilqə və s. daxildir.

**Zireh.** Döyüşçünü hücum silahlarının zərbəsindən qoruyan bu geyim kiçik dəmir təbəqələrdən düzəldilir. Məftil vasitəsilə bir-birinə bağlanmış təbəqələr torpaqda uzun müddət qala bilmir, korroziya nəticəsində ovulub parçalanır. Buna görə də arxeoloji qazıntılardan tapılan belə xırda qalıqlar onların formalarını müəyyən etməyə çətinlik törədir. Belə zireh qalığının qismən yaxşı saxlanılmış bir parçası Örənqaladan tapılmışdır[66]. Bunun nadir tapıntı kimi böyük əhəmiyyəti vardır.

Maraqlıdır ki, Beyləqandan tapılan bir şirli qab üzərində atlı döyüşçünün əynində də zireh təsvir olunmuşdur[67]. Şübhəsiz, bütün bunlar orta əsrlərdə başqa şəhərlərdə olduğu kimi, Bakıda da istifadə olunmuş belə silahların formasını aydınlaşdırır.

**Qalxan.** Bakıdan tapılan məzar daşları üzərindəki təsvirlərə əsasən qalxan haqqında da müəyyən fikir söyləmək olar. Qeyd edildiyi kimi, XIV—XVII əsrlərə aid edilən bir başdaşı üzərində silahlar içərisində qalxan da təsvir edilmişdir. Qalxan rəsmi pis saxlandığına görə forması yaxşı bilinmir. Lakin bu təsvir orta əsrlərdə həmin növ silahdan Bakıda istifadə olunduğunu söyləməyə əsas verən faktik dəlildir.

**Dəbilqə.** Arxeoloji qazıntılar nəticəsində Bakıdan dəbilqə tapılmamışdır. Lakin tarixi mənbələrin məlumatına görə orta əsrlərdə müdafiə silahı kimi dəbilqədən istifadə edilməsi məlumdur. Azərbaycanın inkişaf etmiş orta əsr şəhərlərindən olan Beyləqanın mustofisi Məsud ibn Namdarın əsərində döyüş səhnələri təsvir edilirkən qılınc, xəncər, ox-kaman, nizə və s. hücum silahları ilə yanaşı, müdafiə silahlarından qalxan və dəbilqənin də adı çəkilir[68].

XVI əsrə aid bir məxəzdə 1580-ci ildə Bakıda olmuş ingilis səyyahının yerli əsgərlərin əynində polad və gümüşlə bəzədilmiş zirehli paltarlara valeh olması haqqında məlumat vardır[69].

Ümumiyyətlə, Azərbaycanda müdafiə silahı kimi dəbilqə çox qədimlərdən məlumdur[70]. Bizə elə gəlir ki, inkişaf etmiş orta əsr sənətkarlıq şəhəri olan Bakıda da müdafiə silahı kimi dəbilqədən geniş istifadə olunmuşdur.

---

[66] *Ибрагимов Ф. А.* Металлообрабатывающее ремесло в средневековых городов Азербайджана в IX — XIII вв. Автореф. Bakı, 1969, s. 12, müq. et. Əhmədov Q. M. Orta əsr Beyləqan şəhəri. Bakı, 1979, s. 53.

[67] Əhmədov Q. M. Göstərilən əsəri, s. 53, 19-cu şəkil «a», Örənqala çöl qeydi, № 25, 1959-cu il.

[68] Masud ibn Namdar. Göstərilən əsəri, s. 174 a/42, 175 a/43, 177 a/45, 176 b/45; müq. et: Əhmədov Q. M. Göstərilən əsəri.

[69] Rasim Əfəndi. Azərbaycan dekorativ-tətbiqi sənətləri. Bakı, 1976, s. 65.

[70] Osmanov F. L., İbrahimov F. Ə. Nüydidən tapılmış antik dövr alban silahları. «Azərb. SSR EA Xəbərləri» (tarix, fəlsəfə və hüquq seriyası), 1976, № 4, s. 56 — 57.

## MƏİŞƏT TƏSƏRRÜFAT ƏŞYALARI VƏ İNŞAAT MATERİALLARI

Bakıdakı arxeoloji qazıntılar nəticəsində məişət, təsərrüfat və inşaatda işlədilən bir sıra avadanlıq tapılmışdır. Torpaqda uzun müddət qalmasına baxmayaraq, bu materiallar öz formalarını saxlamışdır ki, bu da onların orta əsrlərdə məişət, təsərrüfat və inşaatın hansı sahəsində işlədilməsini müəyyən etməyə kömək göstərir. Təsərrüfat və məişət ehtiyaclarının ödənilməsi üçün xalqın yaratdığı bu sənət nümunələri dövrün insəsənət və mədəniyyətinin səviyyəsini öyrənmək cəhətdən də qiymətlidir.

Etnoqrafik materiallarla müqayisədə həmin avadanlığın çoxu özünə analoji paralellər tapır ki, bu da həmin maddi mədəniyyət qalıqlarının xalqın məişətində, təsərrüfat və tikinti texnikasında uzun əsrlər istifadə olunduğunu göstərir. Məhz bu vəziyyət arxeoloji yadigarların xalqın həyatında əsrlər boyu tutduğu mövqeyi daha geniş və ətraflı işıqlandırmağa kömək edir.

## MƏİŞƏT VƏ TƏSƏRRÜFAT ƏŞYALARI

**Çıraqlar.** Xalqın məişətində işlədilən əşyaların bir qrupunu çıraqlar təşkil edir. Orta əsr abidələrindən arxeoloji qazıntılar nəticəsində tapılan çıraqların əksəriyyəti gildən hazırlanmışdır[71]. Bu da gil çıraqların məişətdə geniş yer tutduğunu göstərən əsas əlamətlərdən biridir. Bununla yanaşı arxeoloji qazıntılar zamanı xeyli metal çıraqlara da təsadüf olunur. Metal çıraqların az tapılmasını nəzərə alaraq onların hər biri haqqında ayrıca məlumat verməyi lazım bilirik.

Bakıda Şirvanşahlar sarayının həyətində 1938—1939-cu illərdə aparılan arxeoloji qazıntılar zamanı 3,5 metr dərinlikdən bir ədəd bədii formalı metal çıraq tapılmışdır[72]. Onun ümumi uzunluğu 18, hündürlüyü isə 8,5 sm-dir. Çırağın şarvarı formaya yaxın olan gövdəsinin bir tərəfində boru şəklində lüləsi vardır (VI tablo, 1). Lülə gövdədən başlayıb uca doğru getdikcə daralaraq tədricən yuxarı qaldırılmış və qurtaracağında fitil üçün en kəsiyi dairəvi olan deşik düzəldilmişdir. Çırağın şarvarı gövdəsi üzərində düzəldilən boğazı isə silindr formasındadır. Boğazı yuxarı qalxdıqca azca yana doğru genişlənir. Onun qulpunun bir ucu gövdəsinə, digəri isə ağzının qırağına yapışdırılmışdır. Çırağın çıxıntılardan ibarət dörd ayağı vardır. Onların ikisi gövdəsinin, ikisi isə boru formalı lüləsinin ortasına birləşdirilmişdir.

Çırağın belə düzəldilməsi onu bir növ zoomorf şəklə salmışdır. Bu tunc çırağın həm gövdəsi, həm də lüləsinin üzərində başdan-başa müxtəlif heyvan fiqurları düzəldilmişdir. Burada iki at, iki öküz, pişik cinsindən olan on dörd heyvan başı və iki insan sifəti təsvir olunmuşdur. Fiqurlar çırağın gövdəsi üzərində qeyri-münasib şəkildə yerləşdirilmişdir. Çıraq mum qəlibdən istifadə olunmaqla tökmə üsulu ilə hazırlanmışdır. Əvvəl mumdan əşyanın modeli düzəldilir, sonra həmin modelin əsasında tunc tökmək üçün gil forma hazırlanır. Mum əridilərək formadan çıxarılır və yerinə ərinmiş halda olan tunc tökülür. Əşyanı qəlibdən çıxarmaq mümkün olmadığından qəlib hər dəfə sındırılır. Beləliklə, hər dəfə yeni əşya üçün yeni model və qəlib düzəldilir. Məhz buna görə də belə əşyalar baha qiymətləndirilir və şübhəsiz, həmin dövrdə belə əşyalardan yalnız yüksək təbəqəyə mənsub adamlar istifadə edirdilər.

Çırağın tam oxşarı hələlik tapılmamışdır. Lakin bəhs etdiyimiz formada bir metal çıraq Azərbaycan Dövlət Tarix Muzeyinin arxeoloji fondunda saxlanılır[73]. Bəzi detallarını nəzərə almasaq, quruluşuna görə bir-birinə oxşardır (VI tablo, 2). Çıraq tökmə yolu ilə hazırlanmışdır. Zoomorf tipdə olan bu çırağın da dörd ayağı vardır. Onlardan ikisi gövdənin, ikisi isə lülənin orta hissəsinə bərkidilmişdir. Bu çırağın gövdəsi, lüləsi, qulpu və boğazı birincidə olduğu kimidir. Onlar yalnız üstündəki bəzəklərinə görə fərqlənirlər. Əvvəlki çırağın üstündə çoxlu müxtəlif heyvan fiqurları olduğu halda, bu çırağın gövdəsi üzərində nəbati naxışlar, lüləsində isə təkə rəsmi təsvir edilmişdir. Birinci çıraq ilə oxşar cəhətlərini nəzərə alaraq onun əvvəlki çıraqla eyni dövrə aid olduğunu ehtimal edirik.

Metal çıraqlar həm Azərbaycanın orta əsr şəhərlərindən[74], həm də qonşu ölkələrdən[75] məlumdur. Qeyd etməliyik ki, quruluşuna görə Bakı çırağından fərqlənən Qəbələ və Taraz şəhərlərindən tapılan çıraqlar həm də çoxlüləlidir. Tədqiqatçı T. N. Seniqova Taraz çıraqlarını X—XIII əsrlərə aid edərək, onların bir hissəsini atəşpərəstliklə əlaqələndirir. S. M. Qazıyev isə beşlüləli Qəbələ çırağının buxurdan olduğunu söyləyir[76]. Bizim fikrimizcə, hər iki çıraqdan çilçıraq kimi istifadə olunmuşdur.

---

[71] Əhmədov Q. M. Azərbaycanın şirsiz saxsı məmulatı. Bakı, 1959. s. 97.

[72] Leviatov V. N. Göstərilən əsəri, s. 136.

[73] Azərbaycan Dövlət Tarix Muzeyinin arxeoloji fondu, inv. № 1102. Bu çıraq haqqında R. Əfəndiyevin «Azərbaycanın bədii sənətkarlığı» (Bakı, 1966-cı il) adlı kitabında məlumat verilmişdir. Müəllif bu çırağın XII əsrə aib olub, Bakıdan tapıldığını söyləyir.

[74] Osmanov F. L. Qəbələnin metal məmulatı haqqında. Azərbaycan tarixi məsələləri. Bakı. 1966, s. 41; İbrahimov F. Ə. Göstərilən əsəri, s. 153; Əhmədov Q. M. Orta əsr Beyləqan şəhəri, Bakı, 1979, s. 55, 33-cü şəkil, «i».

[75] *Сенигова Т. Н.* Осветительные приборы Тараза и их связь с культом огня. СА, № 1, 1968, с. 208; Pope A. Survey of Persian Art, III, London and Nou-Jork, 1936, s. 2487.

[76] Qazıyev S. M. Qəbələdə aparılmış arxeoloji tədqiqat və qazıntıların yekunları. AMM VI cild, 1965. s.153, III tablo, 1.

Arxeoloji qazıntılar nəticəsində tapılan istər gil, istərsə də metal çıraqlarda yanacağın hansı növündən istifadə edilməsi maraqlıdır. Bu cəhətdən Bakıda neft emal edilməsi haqqında ərəb mənbələrinin məlumatı diqqəti cəlb edir. Tarixi mənbələrin məlumatına görə hələ X əsrdə Bakıda neft çıxarılırmış[77]. Məhz bu fakt həmin dövrdə çıraqlarda yanacaq kimi yalnız neftdən istifadə edildiyini göstərir.

Etnoqrafik məlumatlara görə neftlə yanan lüləli çıraqlardan son zamanlara qədər geniş istifadə edilmişdir ki, bu da «qara çırağ»ın xalqın məişətində uzun əsrlər mühüm rol oynadığını göstərir.

**Şamdan.** Şirvanşahlar sarayı həyətindəki qazıntılar zamanı quyunun dibindən 4 metr dərinlikdən metal şamdan aşkar edilmişdir[78] (VI tablo, 3). Bu arxeoloji tapıntı həmin dövrdə metal çıraqlarla yanaşı şamdandan da istifadə olunduğunu göstərir. Şamdan mis təbəqədən döymə üsulu ilə düzəldilmişdir. Onun ümumi hündürlüyü 25 sm-dir. Bu şamdanın gövdəsi dairəvi formanı xatırladır. Oturacaqla gövdə arasındakı sahə isə xaricə doğru qabarıq düzəldilmişdir. Onun oturacağının altı dalğavarıdır. Şamdanın 10 sm uzunluğunda olan borusunun en kəsiyi dairəvidir. Borunun ağzının kənarları yana doğru qatlanmışdır. Onun gövdəyə yaxın hissəsindəki qabarıq çıxıntı dilimli şəkildədir. Xarici görünüşü etibarilə çox gözəl hazırlanmış bu şamdan orijinal quruluşa malikdir. Maddi mədəniyyət qalıqlarına əsasən şamdan XII—XIII əsrin əvvəllərinə aid edilir[79].

Tədqiqatçı Leviatov bu tapıntının vəzifəsini dəqiq aydınlaşdırmamışdır. Onun bir neçə xüsusiyyətlərini— borusunun uzunluğunu və içərisinin boşluğunu, həmçinin xüsusi quruluşa malik olması kimi cəhətlərini əsas götürərək bu alətin şamdan olmasını inkar edir[80].

Lakin təsvir və rəsmdən göründüyü kimi, bu alət əsl şamdan formasındadır. Bunu oxşar arxeoloji tapıntılar da təsdiq edir. Belə şamdanlardan üç ədədi Türkmənistanın Şexr-İslam orta əsr şəhərindən tapılmışdır[81]. XII—XIV əsrlərə aid edilən bu şamdan 32 sm hündürlüyündədir. O, yalnız borusunun girintili-çıxıntılı və oturacağının üçayaqlı düzəldilməsinə görə Bakı şamdanından fərqlənir. Tədqiqatçı Y. Ataqarrıyev XII—XIV əsrlərdə belə şamdanların Orta Asiyada geniş yayıldığını qeyd edir. Formaca bunlara oxşar olub, X—XIII əsrlərə aid edilən bir mis şamdan Ani qazıntılarından da tapılmışdır[82]. Göründüyü kimi, eyni dövrə aid arxeoloji qazıntılardan aşkar edilən analoji materiallar da Bakıdan tapılan bu əşyanın həqiqətən şamdan olduğunu bir daha təsdiq edir.

**Ərsin.** İçərişəhərdəki arxeoloji qazıntılar zamanı üç ədəd ərsin aşkar edilmişdir. Dəmirdən düzəldilmiş bu alətlərin hər üçünün dəstəyi qırılmışdır. Onlardan biri təndirin içərisindən tapılmışdır (VII tablo, 1). Ərsinin 1,5 sm uzunluğunda qalmış qulpunun en kəsiyi lentvarıdır. Tiyəsinin eni isə 5,5 sm-dir. Tapılma şəraiti onun təndir ərsini olduğunu göstərir. Təndir ərsinlərinin isə qulpu uzun olur. İlk orta əsrlərə aid Mingəçevirdən bütöv tapılan ərsinin uzunluğu 63 sm-dir. Bu ərsinin bir başı qarmaqlıdır. Ərsinin tiyəsinin eni 5,5 sm-dir[83].

Böyük ərsin Beyləqan qazıntıları zamanı da tapılmışdır[84]. Onun bir tərəfi qırılmışdır. Qalığının uzunluğu 31 sm-dir.

Etnoqrafik məlumatlara görə təndir ərsininin dəstəyinin uzunluğu 70—80 sm olur[85]. Belə ərsinlərdən bəzisinin bir başı qarmaqlı düzəldilir. Bəzən isə ərsin ayrı, qarmaq da ayrı hazırlanır. Bu cür ərsin təndirdən çörəyi qazıb çıxarmaq və təndirin divarlarındakı qalıqları təmizləmək üçün işlədildiyinə görə təndir ərsini adlanır.

Digər iki ədəd ərsinin tiyəsi də əvvəlkinə oxşayır (VII tablo, 2, 3). Onların həm qulpu qırılmış, həm də güclü korroziyaya uğradığından tiyəsinin bir tərəfi ovxalanıb tökülmüşdür. Qulpu saxlanılmadığından onların təndir və ya xəmir ərsini olduğunu söyləmək çətindir. Təndir və xəmir ərsinlərinin tiyə hissəsi eyni formada olduğu üçün onları yalnız sapının uzun-qısalığına görə ayırmaq mümkündür.

Xəmir ərsininin dəstəyi kiçik olur və onun ucuna asmaq üçün bəzən halqa salınır. Xəmiri yığmaq, kəsmək və s. məqsədlər üçün işlədildiyinə görə bu alətə xəmir ərsini deyilir. Xəmir ərsini Beyləqandan tapılmışdır[86]. Onun dəstəyinin ucu oval formada düzəldilmişdir. Uzunluğu 18 sm-dir.

Bəhs etdiyimiz hər iki ərsindən hal-hazırda da geniş istifadə olunur ki, bu da həmin alətlərin xalqın məişətində uzun müddət işlədildiyini göstərir.

**Həvəngdəstə.** 1978-ci il tədqiqatları zamanı 13-cü sahədən bir ədəd həvəng dəstəyi tapılmışdır (VII tablo, 4). Bu alət tuncdan tökmə yolu ilə hazırlanmışdır. Onun döymək üçün olan hissəsi enli olub, ortası bir az qabarıqdır. Əks tərəfi ovalvarı formada yumrudur. İş vaxtı əlin sürüşməməsi üçün ortaya yaxın hissəsi qabarıq

[77] Məsudi. Göstərilən əsəri, s. 50-51; *Худуд-аль-Алем.* Рукопись Туманского с введением В. Бартольда. Л.. 1930, л. 33; *Крачковский И. Ю.* Вторая записка Абу Дулафа в географическом словаре якута. «Azərb. SSR EA Xəbərləri», 1944, № 8. с. 72.

[78] Leviatov. V. N. Göstərilən əsəri, s. 137.

[79] Leviatov V. N. Göstərilən əsəri, s. 139.

[80] Yenə orada, s. 137.

[81] *Атагаррыев Е.* Материальная культура Шехр-Ислама. Ашхабад 1973. с. 64 — 66.

[82] *Абрамян В.* Л. Ремесла в Армении. Ереван, 1956, 18-ci şəkil.

[83] Vahidov R. M. Mingəçevir..., s. 31, I tablo, 4.

[84] Örənqala çöl qeydi № 3839/95. 1951-ci il.

[85] Atakişiyeva M. Göstərilən əsəri, s. 174.

[86] *Якобсон А. Л.* Археологические исследования на городища Оренкала в 1957 г, МИА СССР, А» 133, М.—Л., 1965, с. 18, 9-cu şəkil "s".

düzəldilmişdir. Bəhs etdiyimiz belə metal dəstəkdən müasir dövrdə xalqın məişətində duz, ləpə, qorğa və müxtəlif ədviyyat əzmək üçün geniş istifadə olunur. Bu kimi dəstəklərə arxeoloji qazıntılar zamanı da çox təsadüf edilir. Bakıdan tapılan həvəng dəstəyi kimi alət orta əsr Beyləqan şəhərindən də məlumdur.[87] IX—XIII əsrlərə aid belə həvəng dəstəklərinin oxşarı Ermənistanın Dvin[88] və Türkmənistanın isə Şexr-İslam[89] orta əsr şəhərlərindən əldə olunmuşdur. Orta Asiyada başqa şəhərlərdən aşkar edilən belə həvəng dəstəkləri XI—XII əsrlərə aid edilir[90].

**Metal qablar.** Bakı qazıntılarından tapılan XII—XIV əsrlərə aid məişət əşyalarının bir hissəsini metal qablar təşkil edir. Bu qabların bir neçəsi ölçülərinə görə çox kiçikdir. Onlardan biri 1974-cü ildə 9-cu sahədə aparılan qazıntı zamanı tapılmış mis qabdır. Yarımşar formalı cama oxşar bu mis qabın hündürlüyü 4, ağzının diametri isə 5,5 sm-dir (VII tablo, 5). Qabın çöl tərəfdən ağzının kənarı dörd cərgə qabarıq zolaqlarla naxışlanmışdır. Onun divarları nazikdir. Zərif hazırlanan bu qabın nə məqsəd üçün istifadə edildiyini dəqiq müəyyən etmək çətindir. Lakin incə zövqlə düzəldilməsi və simmetrik naxışlanması ondan həm də bədii əşya kimi istifadə edildiyini ehtimal etməyə əsas verir.

1970-ci ildə başqa bir yarımşar formalı mis qab əldə olunmuşdur (VII tablo, 6). Bu qab da nisbətən zərif hazırlanmışdır.

Kiçik qablardan biri də silindr formalıdır. Bu qab 1971-ci ildə aşkar olunmuşdur (VII tablo, 7). Onun hündürlüyü 3,5, diametri isə 3 sm-dir. Nazik mis təbəqə halqa şəklində əyilərək ucları bir-birinə birləşdirildikdən sonra lehimlənmişdir. Onun ölçüsünə uyğun dairəvi formada kəsilmiş mis təbəqə isə qabın oturacağına lehim vasitəsi ilə yapışdırılmışdır. Qabın ağzı bir qədər içəriyə doğru yığcamdır.

1964-cü ildə aşkar olunan mis cam əvvəlkilərə nisbətən xeyli böyükdür. Hündür oturacaqlı bu qabın ağzı çölə doğru əyməli formada düzəldilmişdir. Onun ağzının xaric tərəfində cızma üsulu ilə paralel batıq xətlərdən dairə çəkilmişdir. Bu mis qab əvvəlkilərdən fərqli olaraq xeyli qalındır (VII tablo, 8).

1970-ci ilin qazıntı materialları içərisindəki mis dolça diqqəti cəlb edir (VII tablo, 9). Yastı oturacaqlı bu qabın gövdəsi bir qədər şişkin olub, yuxarı qalxdıqca daralır. Qulpunun bir tərəfi boğazına, digəri isə gövdəsinə yapışdırılmışdır. Qalınlığına və oxşar qablara əsasən qulpu bərpa edilmişdir. Qulpun əks tərəfində qabın ağzı novçalı formada düzəldilmişdir.

Yeri gəlmişkən qeyd etməliyik ki, süddan formalı bir gümüş dolça Bakıdan təsadüfən tapılmışdır[91]. Həmin qabın quruluşu üzərində müxtəlif kompozisiyalı səhnələr yaratmaq üçün çox əlverişlidir. Buna görə də qabın üzəri əvvəlcə simmetrik şəkildə hissələrə bölünmüş, sonra müxtəlif texniki üsullarla xalı kimi zəngin naxışlanmışdır (XVII tablo, 1). Onun üstündə sifarişlə hazırlanması haqda yazı da vardır. Yazıda bu qabın Məhəmmədbağır adlı usta tərəfindən Cabbar bəy üçün hazırlandığı qeyd olunur. Qabın naxışlarının kompozisiyası və işlənmə xüsusiyyətləri onun Şirvan sənətkarına məxsus olduğunu söyləməyə əsas verir. Belə bir mis qab Şamaxıdan da məlumdur[92]. XVI—XVII əsrlərə aid edilən Şamaxı qabı ilə bəhs etdiyimiz gümüş qabın quruluşunun oxşarlığı, həmçinin üzərindəki bəzi motiv və kompozisiyaların yaxınlığı yuxarıda deyilən fikri bir daha təsdiq edir.

Qazıntılar zamanı metal qabın qırıqlarına da təsadüf olunmuşdur. Onlardan biri nazik divarlı mis qaba aiddir (VII tablo, 10). Ağzının kənarı qabın üstünə qatlanaraq lehimlənmişdir. Qabın qırıqları onun nəlbəkivarı formada olduğunu göstərir. Digər mis qabın bir parçası tapılmışdır. Ağzının kənarı yana doğru əyləmlidir. Formasını bərpa etmək mümkün olmadı (VII tablo, 11).

1964-cü ildə Qız qalasının yanındakı arxeoloji qazıntılar zamanı uçurulmuş evin yerindən bir ədəd müasir çaynik formasında qab tapılmışdır (VIII tablo, 1). Onun üzəri bəzəklidir. Qaba diqqətlə nəzər yetirdikdə onun şərpuşdan kəsilib düzəldildiyi aydın olur. Belə ki, sərpuşun konusvarı formalı baş tərəfi kəsilərək çaynikin ağzı üçün yer açılmışdır. Alt hissəsinə isə dairəvi mis təbəqə qaynaq edilərək oturacaq düzəldilmişdir. Sərpuşun bir tərəfində deşik açılaraq, oraya lülək qaynaq edilmişdir (VIII tablo, 2).

Beləliklə, gözəl incəsənət abidəsi olan sərpuş ehtiyac üzündən kobud çaynikə çevrilmişdir. Qeyd etdiyimiz kimi sərpuşun üstü gözəl naxışlanmışdır. Onun səthi əvvəlcə simmetrik şəkildə zolaqlara bölünmüşdür. Enli zolaqların arası kəsmə və burma formalı naxışlarla bəzədilmişdir.

Qabın ağzının qırağı ilə oturacağa yaxın hissədəki yarpaqvarı naxışlar bir-birini təkrar edir. Sərpuşun aşağı hissəsi kəsilərkən naxışların çoxu qaynaq nəticəsində pozulmuş və yalnız rombvarı bəzəklərin izi

---

[87] Əhmədov Q. M. Orta əsr Beyləqan şəhəri, s. 54, 33-cü şəkil «j».
[88] Kafadaryan K. Q. Göstərilən əsəri, s. 169.
[89] Ataqarrıyev Y. Göstərilən əsəri, s. 68.

[90] *Литвинский Б. А.* Средневековые поселения области Нисы севернее Копетдага в IX — XV вв. Ташкент, 1950, с. 94.
[91] Mustafayev A. N. Şirvanın maddi mədəniyyəti. Bakı. 1977. Həmin qab Azərbaycan EA Tarix İnstitutunun baş elmi işçisi A. Mustafayev tərəfindən ətraflı tədqiq olunur. Bizi qabla tanış etdiyi üçün ona təşəkkürümüzü bildiririk.

[92] Ciddi H. Ə., İbrahimov F. Ə. Şamaxıdan tapılmış zəngin naxışlı mis qab. «Azərb. SSR EA Xəbərləri» (tarix, fəlsəfə və hüquq seriyası), 1978, № 3, s. 72.

qalmışdır. Burada diqqəti cəlb edən naxış qabın orta hissəsindəki enli zolaq üzərində simmetrik yerləşdirilmiş buta və günəş rəsmləridir.

Qeyd etməliyik ki, sərpuş formalı qablar hələ inkişaf etmiş orta əsrlərdə geniş yayılmışdır[93]. Həmin dövrdə bu növ qabların üzəri də zəngin naxışlanmışdır. Son orta əsrlərdə isə bu qabların tam sərpuş formaları yaranmışdır. Məlum olduğu kimi son vaxtlara kimi davam edən sərpuşlar əsasən misdən düzəldilmişdir. Adətən bu qabların üzəri zərb üsulu ilə zəngin naxışlanır[94]. Bəhs etdiyimiz sərpuşun üzərindəki buta və günəş rəsmlərinin mənşəyi qədimdir. Bu rəsmlər xalq arasında, incəsənətdə geniş yayılmış bədii naxışlardandır.

1969-cu ildə 2-ci qazıntıdan əldə edilən son dövrlərə aid mis ləyən də nisbətən yaxşı qalmışdır. Onun içərisində süzülmək üçün düzəldilmiş hissənin olması ləyənin məişətdə istifadə olunduğunu göstərir (IX tablo, 1—2).

Metal qablardan danışarkən Bakı buxtasından arxeoloji qazıntılar nəticəsində tapılan XIII əsrə aid gümüş qabı da qeyd etməliyik[95]. Təəssüflə deməliyik ki, qab itirildiyindən haqqında məlumat vermək mümkün olmadı.

Onu da qeyd etməliyik ki, İçərişəhərin qala divarından şimal tərəfdə indiki Hüsü Hacıyev küçəsində inşaat işləri zamanı çoxlu mis qırıntıları, misgərlik sənəti məhsulları və şlakları tapılmışdır[96]. Maraqlıdır ki, bu küçənin xalq arasında son vaxtlara qədər «Misgər məhəlləsi», «Zərgər palanı» adlandırılması da təsadüfi hal olmayıb, burada vaxtilə metalişləmənin müxtəlif sahələrinin varlığına işarə edir. Ümumiyyətlə, bu tapıntılar son orta əsrlərdə Bakıda metalişləmənin ardıcıl davam etdiyini göstərməklə yanaşı, onun həm də geniş yayıldığını təsdiq edir. Rasim Əfəndi bu materialları hətta XII—XV əsrlərə aid tətbiqi sənət əsərləri içərisində vermişdir[97].

**Tərəzi gözləri.** Bakının arxeoloji materialları içərisində maraqlı tapıntılardan biri də kiçik tərəzi gözləridir. 1967-ci ildə I qazıntıda 3,2 metr dərinlikdən aşkar edilən bu tərəzi gözləri təbəqə misdən döymə üsulu ilə hazırlanmışdır (IX tablo, 3, 4). Çox zərif düzəldilmiş bu tərəzi bir növ yarımşar formaya yaxındır. Diametri 5 sm olan tərəzi gözünün üç tərəfində kiçik dairəvi deşiklər vardır. Kiçik ölçüdə çox da dərin olmayan bu tərəzidən ehtimal ki, zərgərlikdə və ya əczaxanada istifadə edilmişdir.

1974-cü ildə 9-cu, 1978-ci ildə isə 13-cü qazıntı sahələrindən mis tərəzi gözləri tapılmışdır. Hər ikisi əvvəlkinə nisbətən güclü korroziyaya uğramışdır. Lakin buna baxmayaraq formaları bilinir. Onların da kənarlarında dairəvi deşiklər vardır. Bu tərəzi gözləri nisbətən iridir. Onlardan birinin diametri 5, digərininki isə 8 sm-dir. Bəhs etdiyimiz tərəzi gözlərinin hər üçündəki deşiklər onlardan asılma yolu ilə istifadə edildiyini göstərir. Arxeoloji qazıntılar nəticəsində bu növ tərəzilərə aid metal qolları isə hələlik Bakıdan tapılmamışdır. Mingəçevirdən tapılan tərəzi qolları bu cəhətdən diqqəti cəlb edir[98]. Orta əsr tərəzisi haqqında ətraflı təsəvvür yaratmaq üçün bu tapıntıların əhəmiyyəti böyükdür. Tuncdan çubuq formasında hazırlanmış bu tərəzi qolları hər iki tərəfdən tərəzi gözlərini ip vasitəsilə asmaq üçün deşik düzəldilmişdir. Onun orta hissəsində müvazinəti tarazlamaq üçün düzəldilmiş çıxıntı həm də tərəzinin qulpu vəzifəsini daşımışdır. Onlardan birinin qulpunun ucunda dairəvi deşik vardır. Bir-birini tamamlayan hər iki tapıntı həm bütövlükdə tərəzi haqqında, həm də onun mənşəyi haqqında müəyyən fikir söyləmək imkanı yaradır.

Qeyd etməliyik ki, orta əsr şəhərlərindəki arxeoloji qazıntılar nəticəsində belə tərəzi gözləri Beyləqandan[99] və Qəbələdən[100] də aşkar olunmuşdur. Mis təbəqədən döymə texnikası ilə düzəldilən bu tərəzi gözləri də Bakınınkına oxşar olub XII—XIII əsrlərə aid edilir. Belə bir tərəzi Ermənistandan da tapılmışdır[101]. O, IX—XIII əsrlərə aid edilir. Həmin tərəzinin qolu da metaldan olub, formaca Mingəçevirinkinə yaxındır. Azərbaycan xalqının məişətində, alqı-satqı əməliyyatında eyni növ tərəzidən hazırda da xüsusilə kəndlərdə geniş istifadə edilir.

Maraqlıdır ki, orta əsr tərəziləri formasında olan müasir tərəzilər həm metal, həm də ağacdan düzəldilir. Ağacdan hazırlanan tərəzilər adətən böyük olub, irihəcmli çəkilər üçün işlədilir. Bütün bunlar isə eyni formalı tərəzinin xalqın məişətində əsrlər boyu istifadə olunduğunu göstərməklə bərabər, onun ticarət sistemi haqqında xeyli məlumat verməyə imkan yaradır.

**Çəki daşları.** Tədqiq olunan dövrdə hansı çəki daşının işlədilməsi haqqında dəqiq məlumat yoxdur. Arxeoloji qazıntılar nəticəsində tapılan xeyli əşyalar onların çəki sistemi ilə əlaqədar olduğunu ehtimal etməyə əsas verir. Bakının maddi mədəniyyəti içərisində metaldan çəki daşına oxşar nümunələr azdır. Onlardan biri

---

[93] Əhmədov Q. M. Azərbaycanın şirsiz saxsı məmulatı, s. 84, XV tablo, 5.

[94] Quliyev H., Tağızadə N. Metal və xalq sənətkarlığı. s. 43, IX tablo, 9; Rasim Əfəndi. Azərbaycanın dekorativ tətbiqi sənətləri, Bakı. 1976. s. 156 — 159.

[95] *Джафарзаде И.* Археологические раскопки 1946 г. в Бакинской бухте. Изв. АН Азерб. ССР, 1947. № 7. с. 9; Müq. et: Aşurbəyli S.B. Göstərilən əsəri, s. 80.

[96] *Али-заде А. А.* Социально-экономическая и политическая история Азербайджана XIII — XIV вв., Баку, 1956, с. 42; Rasim Əfəndi. Göstərilən əsəri, s. 25.

[97] Rasim Əfəndi. Göstərilən əsəri, s. 65.

[98] Zahidov R. M. Mingəçevir... s. 91, I tablo, 5—6-cı şəkillər.

[99] İbrahimov F. Ə. Göstərilən əsəri, s. 159; Müq. et: Əhmədov Q. M. Orta əsr Beyləqan şəhəri, s. 54.

[100] Qəbələ tərəzisi haqqında şifahi məlumat verilmişdir.

[101] *Аракельян Б. Н.* Города и ремесла Армении в IX — XIII вв, т. II, Ереван, 1964.

diqqəti daha çox cəlb edir. Bu dəmir əşya 1976-cı il qazıntısı zamanı əldə edilmişdir. Silindr formasında olan bu tapıntının yanları dilimli şəkildə düzəldilmişdir (IX tablo, 5). Üzərini pas örtdüyündən üstündə müəyyən bir işarənin olub-olmadığını müəyyənləşdirmək mümkün olmadı. Bu əşyanın əlamətləri və həcmi onun çəki daşı olduğunu güman etməyə əsas verir. 1977-ci il qazıntısı zamanı 3,7 metr dərinlikdən əldə edilən kiçik gil əşyanın da çəki daşı olduğu ehtimal edilir[102].

Ümumiyyətlə, Bakı qazıntılarından çoxlu miqdarda aşkar edilən şar formal və müxtəlif həcmli daşların da çəkidə istifadə edildiyi şübhə yaratmır. Adətən çəkidə daşdan hər yerdə və hər zaman geniş istifadə edilmişdir. Təsadüfi deyildir ki, çəkidə istifadə edilən ağırlıq vasitəsi hansı materialdan olursa-olsun məhz onu «daş» adlandırırlar. Qeyd etməliyik ki, Azərbaycanın orta əsr abidələrindən çəki daşı hesab edilən xeyli materiallar da tapılmışdır[103].

Etnoqrafik məlumatlara görə, Azərbaycanın rayonlarında metaldan düzəldilmiş çəki daşlarından xalqın məişətində indi də geniş şəkildə istifadə olunur. Belə müasir daşların əksəriyyəti şar formasında olub onların dairəvi qulpu vardır. Bu daşlar daha ağır olduğu üçün onlar iri çəkilərdə işlədilir. Arxeoloji qazıntılardan tapılan istər metal, istərsə də gil daşlar kiçikdir və çox güman ki, onlardan yüngül çəki işlərində istifadə olunmuşdur Ümumiyyətlə, orta əsr çəki sistemi haqqında mənbələrdə də müəyyən məlumatlara təsadüf olunur[104].

**Zınqırovlar.** Məişət ilə əlaqədar əşyalar içərisində zəng və zınqırovlar xüsusi yer tutur. İçərişəhərdəki arxeoloji qazıntılar nəticəsində xeyli zınqırov tapılmışdır. Onları formalarına görə iki qrupa bölmək olar: şar konusvarı və kəsik konus formalı. Bakı zınqırovlarının əksəriyyətini şarvarı gövdəlilər təşkil edir (IX tablo, 6, 8). Onlar həcmlərinə görə bir-birindən fərqlənirlər. Asmaq, tikmək və ya əl ilə tutmaq üçün qulpu vardır. Zınqırovların aşağı hissəsi yarılaraq içərisinə metal parçası salınmışdır. Onlardan iki ədədi içərisindəki metal qırığı ilə birlikdə əldə olunmuşdur[105]. Bu zınqırovların bir hissəsinin altı aypara, qövs formasında kəsilmişdir. Həmin aypara kəsiklərinin bəzisinin bir tərəfində (IX tablo, 7), bəzisinin isə hər iki tərəfində (IX tablo, 8) dairəvi deşiklər açılmışdır.

Zınqırovların içərisində həcmcə kiçik olanları da vardır. Yuxarıda təsvir olunan zınqırovlardan fərqli olaraq, bunlardan bəzək üçün istifadə edilmişdir. Adətən belə şarvarı zınqırovlar qadın bəzəkləri içərisində asma kimi və ya uşaq paltarlarına tikilən bəzək kimi işlədilir. Zınqırov tipli bəzək əşyaları digər orta əsr şəhərlərindən də məlumdur[106].

Tədqiqatçı Y. Ataqarrıyev etnoqrafik məlumatlara əsaslanaraq, bu cür bəzəklərdən qadınların saça asmaq üçün istifadə etdiyini göstərir[107].

Yuxarıda haqqında danışdığımız zınqırovların oxşarları istər Azərbaycanın[108], istərsə də qonşu respublikaların[109] orta əsr şəhərlərindən tapılmışdır.

Bakı tapıntılarının içərisində bir ədəd kəsik konus formalı zəng diqqəti cəlb edir (IX tablo, 9). Tökmə üsulu ilə düzəldilmiş bu zəngin üzərində batıq xətlərlə naxışlar çəkilmişdir. Zəngin üstünə asmaq üçün en kəsiyi lent formasında olan qulp yapışdırılmışdır. Bu cəhətdən XIII əsrin əvvəllərində Şirvanda hazırlanmış bir qab diqqəti xüsusilə cəlb edir. «Şirvan lüləyini» adlanan bu metal qab haqqında elmi ədəbiyyatda geniş məlumat vardır[110]. Qab — inək, onun üstündə qulpu əvəz edən şir və kompozisiyanı tamamlayan anasını əmən vəziyyətdə düzəldilmiş dana fiqurundan ibarətdir. «Şirvan lüləyini» tökmə üsulu ilə hazırlanmışdır. Hər üç fiqur bir dəfəyə tökülmüşdür ki, bu haqda inəyin boynunda yazı vardır.

M. Dyakonov qab haqqında maraqlı fikirlər söyləmiş və onun Şirvanda istehsal olunduğu qənaətinə gəlmişdir. Qabın Şirvanın hansı şəhərində hazırlandığı isə hələlik məlum deyildir.

Bizi daha çox maraqlandıran cəhət bu qabda inək və dananın boynundan asılmış Bakı tapıntısına oxşar kəsik konus formalı zəngdir. Dövrün bədii sənətkarlıq nümunəsi olan «Şirvan lüləyini»ndə inək və dananın boğazından asılmış zənglər Bakı tapıntısının vəzifəsini araşdırmaq üçün çox qiymətlidir. Tədqiq edilən dövrdə yaşamış Xaqani Şirvani və Nizami Gəncəvinin əsərlərində dəvə karvanlarının hərəkəti zamanı zənglərin ahəngli səs çıxarması haqqındakı məlumatları və arxeoloji qazıntılardan tapılan həmin dövrə aid zənglər bir-birini

---

[102] İsmizadə Ö. Ş., İbrahimov F. Ə. 1977-ci ildə Bakıda arxeoloji qazıntılar. Azərb. EA TİEA, 0—195.
[103] İbrahimov F. Ə. Göstərilən əsəri. s. 102, 161, XXIII tablo, 4— 15; Müq. et: Əhmədov Q. M. Orta əsr Beyləqan şəhəri, s. 54, 54-cü şəkil, «t», «i».

[104] *Бунятое З. М.* Азербайджан в VII — IX вв.. Баку, с. 155; *Сейфеддини М. А.* Монетное дело и денежное обращение в Азербайджане XII — XV вв., Баку, 1978, с. 109 — 166.
[105] İbrahimov F. Ə., İsmizadə Ö. Ş., Fomenko V. P. 1971-ci ildə Bakıda V sahədə arxeoloji qazıntıların hesabatı. Azərb. EA Tarix İnstitutunun elmi arxivi, h-72.
[106] *Атагаррыев Е.* О некоторых средневековых женских украшения из Шехр-Ислама. Изв. АН Туркменской ССР, № 1, 1965, с. 10.
[107] *Атагаррыев Е.* Материальная культура Шехр-Ислама, с. 72—73.
[108] İbrahimov F. Ə. Göstərilən əsəri, s. 163, Müq. et: Əhmədov Q. M. Göstərilən əsəri, s. 55.
[109] Kafadaryan K. Q. Göstərilən əsəri. s. 274; *Лунина С. Б.* Гончарное производство в Мерве X — начало XIII в., ТЮТАКЭ, т. II, Ашхабад, 1962, с. 363.

[110] *Дяконов М. М.* Ширванский бронзовый водолей 1206 г., Памятники эпохи Руставели. Гос. Эрмитаж. Л., 1938, с. 247—254.

tamamlayır. Orta əsrlərdə heyvan və quşların boğazından asılmış zınqırovlardan müxtəlif məqsədlər üçün istifadə edilmişdir. Bu barədə ayrı-ayrı tədqiqat əsərlərində məlumat verilmişdir[111]

**Nal və mıxlar.** Məişət və təsərrüfatla əlaqədar əşyalar içərisində nal və mıxlar xüsusi yer tutur. Bakı qazıntıları zamanı tapılan çoxlu dəmir nalları üç qrupa bölmək olar. Bunlar təkdırnaqlı, cütdırnaqlı heyvanların ayağını nallamaq, ayaqqabıların dabanına vurmaq üçün düzəldilmişdir. Onların içərisində yarımdairə və dairəyə yaxın formalıları təkdırnaqlı heyvanlara aiddir (X tablo, 1, 2). Belə nallarda adətən mıx üçün altı deşik olur. Açıq aypara formasında olan nallar isə cütdırnaqlı heyvanlar üçün düzəldilmişdir (X tablo, 3,4). Bunlar təkdırnaqlı heyvanların nallarının yarısı böyüklüyündə olur. Ona görə də hər birində mıx vurmaq üçün üç deşik açılmışdır.

Dabanlı ayaqqabı (başmaq, çəkmə, çust və s.) nalları onlardan xeyli fərqlənir. Belə nallar da ölçülərinə görə müxtəlifdir (X tablo, 5—8). Onları ayaqqabıya bərkitmək üçün həm uclarında, həm də orta hissəsində ucu şiş çıxıntı kimi mıx düzəldilir. Məlum olduğu kimi, nallar işlək heyvanın ayağını qorumaq, ayaqqabı nalları isə onun davamlığını artırmaq üçün hazırlanmışdır.

Qeyd etməliyik ki, Bakı qazıntılarından iki ədəd çox kiçik nal tapılmışdır (X tablo, 10). Bu kiçik miniatur nallar görünür, simvolik məna daşımışdır. Nalbəndlik hazırda da Azərbaycanın rayonlarında davam etdirilir. Dəmirçiliklə məşğul olan ustalar həm də nalbənd işi görürlər. Lakin orta əsrlərdə dövrün tələbatına uyğun olaraq nalbəndlik ayrıca sənət kimi məşhur olmuşdur. Dağlıq və dağətəyi zonalarda dairəvi nallar daha çox işlənmişdir. Arxeoloji qazıntılardan çoxlu miqdarda tapılan nalbəndlik məhsulları bu peşənin Azərbaycanın bütün orta əsr şəhərlərində inkişaf etdiyini göstərir.

Qazıntılar nəticəsində tapılan çoxlu dəmir mıxların bir hissəsini kiçik həcmli mıxlar təşkil edir (XI tablo, 11—14). Belə mıxlar inşaat və məişətdə istifadə olunanlardan həm ölçüsünə, həm də formasına görə fərqlənir. Kiçik ölçülü, baş hissəsi nisbətən iri, özləri isə qısa olan mıxlar heyvanları nallamaq üçün istifadə olunmuşdur. Adətən qazıntılarda belə mıxlara daha çox təsadüf olunur.

Haqqında danışdığımız nal və mıxların oxşarları həm Azərbaycanın orta əsr abidələrindən[112],həm də qonşu respublikaların orta əsr şəhərlərindən tapılmışdır[113].

**Daş bülövlər.** Bakıdakı arxeoloji qazıntılar nəticəsində xeyli daş bülöv—qart aşkar olunmuşdur. Kəsər alətlərin itilənməsi ilə əlaqədar olduğu üçün onları bu bölməyə daxil edərək haqqında yığcam məlumat verməyi lazım bilirik. Bülövləri formalarına görə əsasən üç yerə bölmək olar: düzbucaqlı, ovalvarı və silindrik. Düzbucaqlıların kəsiyi lent, ovalvarılarınınkı ellips, silindr şəklində olanlarınınkı isə dairəvidir.

Düzbucaqlı formada olan boz rəngli daş bülövün bir hissəsi tapılmışdır. (V tablo, 6). Onun bir tərəfində dairəvi deşik vardır. Bülöv çox istifadə olunduğuna görə onun işlək tərəfi orta hissədən qırılmışdır.

Ovalvarı və silindr formalı bülövlər isə çox tapılmışdır (V tablo, 7—8). İşlədildiyinə görə onların da orta hissələri yeyilmişdir. Qeyd etməliyik ki, metaldan, xüsusilə dəmirdən düzəldilən kəsər alətlərin yüksək işlək keyfiyyətinin təmin edilməsində daş bülövlərin əhəmiyyəti böyükdür. Qeyd etməliyik ki, bülöv daşı əsasən dəmir alət və silahların itilənməsində başlıca vasitə kimi məhz dəmirin məişətə daxil olduğu dövrdən daha geniş istifadə edilməyə başlanmışdır. Orta əsr abidələrindəki qazıntılarda daş bülövlərə demək olar ki, tez-tez təsadüf olunur[114].

[111] İbrahimov F. Ə. Göstərilən əsəri, s. 165, Müq. et: Əhmədov Q. M. Göstərilən əsəri, s. 55.

[112] İbrahimov F. Ə. Göstərilən avtoref. s.12 *Osmanov F.L.* Göstərilən əsəri, c. 37; *Джафарзаде И. М.* Историко-археологический очерк Старой Ганджи. Бакы, 1949, с. 84: *Якобсон А. Л.* Раскопки... с. 142; Ciddi H.Ə. Göstərilən əsəri, XIV tablo.

[113] *Кафадарян К. Г.* Город Двин. с. 115; *Абрамян В. А.* Ремесла в Армении... с, 9-cu şəkil; *Атагаррыев Е.* Материальная культура Шехр-Ислама..., с. 70; *Литвински Б. А.* Göstərilən əsəri, s. 171.

[114] Əhmədov Q. M. Orta əsr Beyləqan şəhəri... s. 63, 45-ci şəkil, «a», «b», «v».

## İNŞAAT MATERİALLARI

İçərişəhərdə aparılan qazıntılardan xeyli miqdarda metaldan inşaat ləvazimatı tapılmışdır. Bunlardan əsasən tikintidə köməkçi material kimi istifadə edilir. Belə materiallardan bəndləyici (çənbər), mıx, cəftə, halqa, qırmaq və s. göstərmək olar. Qeyd etməliyik ki, orta əsrlərdə tikinti-inşaat işlərində, şübhəsiz, çəkic, balta, qələm, iskənə, mişar və s. kimi metal alətlərdən də geniş istifadə olunmuşdur.

Arxeoloji qazıntılar nəticəsində tapılan inşaat materiallarının bir qrupunu dəmir bəndlər təşkil edir (XII tablo, 1—4). Güclü korroziyaya uğramalarına baxmayaraq, formalarını saxlamışdır. Onlar həcmlərinə görə müxtəlifdirlər. Dəmir bəndlərin bəziləri 15, bəziləri isə 12 sm uzunluğunda qalmışdır. Mənbələrin məlumatına görə inşaatda daha böyük bərkidicilərdən də istifadə olunmuşdur. Onların bir tərəfi qırılmışdır. Bərkidicilərin orta hissəsi yoğun olub, uclara doğru getdikcə nisbətən nazikləşir. Onlardan iki ədədi orta hissəsinin içəriyə doğru bir qədər qabarıq düzəldilməsinə görə başqalarından fərqlənir (XII tablo, 3—4).

Bərkidicilərin içərisində «T» hərfi formasında nisbətən kiçik olanları da vardır. Şübhəsiz, bu növ tikinti materialından məqsədəuyğun şəkildə istifadə olunmuşdur (XII tablo, 5—6).

Bu alətlər adətən daşı daşla, ağacı ağacla və ya onları bir-birinə birləşdirmək üçün işlədilir. Ağacları bərkidən zaman çənbərlərin mıx formalı ucları zərblə ağaca vurulur. Daşlarda isə əvvəlcə oyuqlar açılır və çənbərlərin ucları ora keçirilərək üstünə bərkidici məhlul doldurulur.

XII—XIII əsrlərə aid Bakı buxtasındakı qala tikintisində metal bəndlərdən geniş istifadə olunmuşdur. Belə ki, bürc və qala divarının hörgüsündə küncdəki daşları bir-birinə möhkəm bağlamaq üçün işlədilən dəmir bəndlər son zamanlara qədər özünün möhkəmliyini saxlamışdır[115].

İnşaatda bərkidici kimi dəmirdən hələ qədim zamanlarda istifadə edilmişdir[116]. Bu cəhətdən tarixi mənbələrdə olan məlumatlar diqqəti cəlb edir. Ərəb tarixçisi və coğrafiyaşünası İbn əl-Fakeh Dərbənd istehkamı haqqında məlumat verərkən göstərir ki, «... Divarları 7 fərsəx olub, yonulmuş daşdan hörülmüşdür... Daşın hər birini 50 adam qaldıra bilməz... Bu daşlar bir-birinin üstünə qoyulub dəmir bəndlərlə bərkidilmişdir»[117].

Yuxarıda bəhs etdiyimiz bərkidicilərin oxşarları Azərbaycanın orta əsr şəhərlərindən də tapılmışdır[118]. Dəmir bərkidicilərə Dvin qazıntıları zamanı da təsadüf edilmişdir[119].

İnşaat materialları içərisində dəmir mıxlar çoxluq təşkil edir. Onları başlığının dairəvi və çıxıntılı olmasına görə iki yerə bölmək olar. Mıxların içərisində başlığı dairəvi olanlar da həcminə görə fərqlənirlər. Belə mıxların uzunluğu 15—22, kiçik olanlarınınkı isə 3—5 sm-dir (XI tablo, 1—6). Başlığı çıxıntılı olan mıxlar isə həm iri, həm də kiçik ölçüdədir. Onların bəzilərinin başı bir tərəfə, bəzilərininki isə hər iki tərəfə çıxıntılıdır (XI tablo, 7—10). Bütün mıxlar uca doğru getdikcə sivriləşir. Qeyd etməliyik ki, həm iri, həm də kiçikölçülü bu mıxların əksəriyyətinin en kəsiyi dairəvi, bir qismininki isə dördkünc formadadır. Onların həm formaları, həm də ölçülərinin müxtəlifliyi ayrı-ayrı məqsədlər üçün hazırlandığını göstərir.

Bəhs etdiyimiz iri mıxların əksəriyyəti əsasən tikintidə və təsərrüfatın müxtəlif sahələrində işlədilmişdir. Onların çoxunun üzərində ağac çürüntüsünün qalması da bunu bir daha təsdiq edir. Dəmir mıxlar döymə üsulu ilə hazırlanmışdır.

Bakı qazıntılarından cəftə (irəzə, rəzgənə), halqa, qırmaq, siyirtmə və s. də tapılmışdır. Cəftələri iki qrupa bölmək olar. Onların bir qrupu dəmir çubuq kimi düzəldildikdən sonra bərabər qatlanaraq ucları sivriləşdirilir. Qatlanan tərəfi isə qıfıl keçirmək üçün halqavarı formaya salınır (XII tablo, 7—9). Digəri isə dəmir çubuğun bir ucunun döyülüb sivriləşdirilməsi, başqa ucunun isə deşilib halqa şəklinə salınması yolu ilə düzəldilir (XII tablo, 10). Cəftələr əsasən qapı, pəncərə, sandıq, mücrü və s. üçün işlədilir.

Məişət və təsərrüfatın müxtəlif sahələrində istifadə olunan dəmir halqalar da tapılmışdır. Onlar həcmlərinə görə müxtəlifdirlər. Böyük halqaların diametri 10—11, kiçiklərininki isə 4—5 sm-dir (XII tablo, 11—15).

Qazıntılardan bir ədəd də qarmaq tapılmışdır. Sual işarəsi formasındadır. Çox güman ki, zəncir və ya örgənin ucuna bağlanaraq istifadə olunmuşdur (XVI tablo, 5).

Bakıdan əldə olunan cəftə, halqa və qırmaqların oxşarları Beyləqan[120], Qəbələ[121] və Gəncədən[122] də aşkar edilmişdir.

---

[115] *Бретаницкий А. С, Датиев С. М., Ельцин Г. А., Мамиконов Л. Г., Мотис Д. А.* Архитектура Азербайджана эпохи Низами. М., 1947, с. 96—101; *Исмизаде О. Ш.* Крепостное сооружение Бакинской Бухте. С А., № 1. М., 1966, с. 277 — 285.
[116] Məmmədzadə K. M. Azərbaycanda inşaat sənəti. Bakı, 1978, s. 19—20.
[117] *Ибн ал'Факих.* Книга о странах. Перевод Н. А. Караулова, ОМОМПК вып. XXXI. отд. I. 1902, с. 23 — 26.

[118] *Якобсон А. Л.* Раскопки... c. 141, s. 141, şəkil «v»; Örənqala çöl qeydi 123 (1961), 70 (1964); İbrahimov F. Ə. Göstərilən əsəri, s. 103—106. XIII tablo, 1—19; Osmanov F. L. Göstərilən əsəri, s. 39, III tablo, 6; Ciddi H. Ə. Gülüstan qalası, Bakı, 1967, s. 115.
[119] Kafadaryan K. Q. Göstərilən əsəri, s. 273.
[120] *Якобсон А. Л.* Раскопки.,s. 141; Örənqala çöl qeydi, 159 (1960), 286, 335 (1961), 94 (1963) və s; İbrahimov F. Ə. Göstərilən əsəri, s. 110 — 111, XIV — XV tablolar.
[121] *Исмизаде О. Ш.* О раскопках Кабала..., с. 107, 121.
[122] Qədim Gəncə çöl qeydi, № 347, 349, 423; 1938—1940-cı illər.

**Siyirtmə.** 1971-ci ildə İçərişəhərin Qoşaqala qapıları yanında abadlıq işləri aparılarkən bir ədəd iri dəmir siyirtmə—qapı dalı aşkar edilmişdir[123]. Çox güman ki, ondan vaxtilə böyük qala darvazasını arxadan bağlamaq üçün istifadə olunmuşdur. Siyirtmənin uzunluğu 80, eni 10, qalınlığı isə 7 sm-dir. Şəhərin tədqiqat dövründəki dəmir darvazası haqqında müəyyən təsəvvür yaratmaq üçün onun böyük əhəmiyyəti vardır. Məlum olduğu kimi, orta əsr şəhərlərinin qala darvazalarının qapıları möhkəm dəmirdən hazırlanırdı. 1683-cü ildə alman səyyahı Kempfer Bakıda olarkən şəhərin şimal divarındakı qoşa qapıların da dəmirdən olduğunu qeyd edir[124]. Mənbələrdə Yəzidiyyə—Şamaxı şəhərinin ətrafına yonulmuş daşdan hasar çəkilərək ona dəmir qapılar qoyulduğu haqqında məlumat vardır[125].

Orta əsr Gəncə şəhərinin son zamanlara qədər saxlanılmış darvazası da bu cəhətdən maraqlıdır. 1138-ci ildə gürcü çarı I Demetrenin Gəncədən hərbi qənimət kimi apardığı bu darvaza hazırda Helat monastırında saxlanılır[126].

Üzərində ərəb dilində kufi xətlə yazılmış kitabədən aydın olur ki, darvaza 1063-cü ildə dəmirçi İbrahim Osman oğlu tərəfindən düzəldilmişdir[127]. XI əsrin dəmirçilik sənətinin inkişaf səviyyəsini öyrənmək üçün bu darvazanın böyük əhəmiyyəti vardır. Darvazanın iri dəmir çərçivəsi içərisində yerləşdirilmiş qalın dəmir təbəqələri böyük başlıqlı, papaqlı dəmir mismarlarla bir-birinə rəbt edilmişdir. Belə başı qabarıq iri mıxlardan darvazanın çərçivəsinin bəzədilməsində də geniş istifadə olunmuşdur. Orta əsr şəhərlərindən olan Beyləqanın şimal-qərb darvazasındakı qazıntılar zamanı qapı yerindən tapılan çoxlu iribaşlıqlı mıxlar da bunu təsdiq edir.[128]

Qeyd etməliyik ki, iribaşlıqlı mıxlar Bakı qazıntıları zamanı da xeyli miqdarda tapılmışdır. Çox güman ki, onlardan inşaat işi ilə yanaşı tikintidə və yeri gəldikdə bəzək işlərində istifadə edilmişdir.

---

[123] Azərbaycan EA Tarix İnstitutunun elmi işçisi Rauf Əhmədov 1971-ci ildə həmin aləti Şirvanşahlar sarayına təhvil vermişdir.

[124] *Шеблыкин И. П.* Краткий очерк истории дворца Ширваншахов в Баку. Баку, 1939, с. 4.

[125] Münəccimbaşı Tarix-e əl-Bab və Şirvan. V. F. Minorskinin tərtib etdiyi mətn. M., 1963, s. 14; Müq. et: Şərifli M. X. IX əsrin ikinci yarısı — XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, 1978, s. 289; *Джидди Г. А.* Средневековый город Шемаха IX — XVII в. Баку, 1981, с. 27. 41.

[126] *Френ Х. М.* Железные (Ганджинские) ворота. Изв. Азерб. АК, вып. II, Баку, 1926; *Еникалопов И.* Железные ворота XI вв. Гелати. Изв. АН. Азерб. ССР (сер, общ, наук), № 5, 1948.

[127] *Алескерзаде А. А.* Подписи архитектурных памятников Азербайджана эпохи Низами. ААЭН, М.—Б., 1947.

[128] İbrahimov F. Ə. Göstərilən əsəri,s. 107-108.

## BƏZƏK ƏŞYALARI

Xalqın mənəvi zövqünü oxşayan, onun estetik təsəvvürlərini əks etdirən bədii sənətkarlıq nümunələri həm də dövrün iqtisadi, ictimai münasibətlərinin öyrənilməsində mühüm amillərdən biri sayılır. Tədqiq olunan dövrün sənətkarlığını, ticarət və mədəni əlaqələrini, habelə sinfi münasibət cəhətdən müxtəlif ictimai məsələləri müəyyənləşdirməkdə bəzək məmulatı qiymətli maddi mənbə kimi xüsusi əhəmiyyətə malikdir. Bakıda aparılan arxeoloji qazıntılar nəticəsində metaldan xeyli bədii sənətkarlıq nümunələri—bəzək şeyləri əldə olunmuşdur. Həmin metal bəzəkləri üzüklər, bilərziklər, sırğalar, asmalar, sancaqlar, toqqa bəzəkləri və s. qruplara bölmək olar.

**Üzüklər.** Bakının zərgərlik məmulatı içərisində böyük bir qrup təşkil edən üzüklər əsasən mis, tunc və gümüşdən hazırlanmışdır. Doğrudur, İçərişəhərdəki arxeoloji qazıntılar nəticəsində hələlik qiymətli metaldan—qızıldan olan üzüklərə təsadüf olunmamışdır. Lakin 1904-cü ilin yazında Bakıda aşkar edilmiş qədim müsəlman qəbiristanlığından mis bəzəklərlə yanaşı xeyli gümüş və qızıldan da bəzək əşyaları tapılmışdır[129]. Onların içərisində iki ədəd mis, üç ədəd isə gümüş üzük vardır[130]. Təəssüflə qeyd etməliyik ki, müəllif tapıntılara həsr etdiyi hesabatında üzüklər barədə məlumat verməmiş, yalnız sadalamaqla kifayətlənmişdir. Bəzəklər qəbir abidəsindən tapılan başqa materiallara əsasən XII—XIII əsrlərə aid edilir[131].

Bakıdan tapılan üzükləri qaşlı və qaşsız üzüklər kimi qruplaşdırmaq olar. Qeyd etməliyik ki, qaşlı üzüklər də öz növbəsində daş-qaşlı və metal qaşlı üzüklərə bölünür.

**Daş-qaşlı üzüklər.** Bakı qazıntılarından tapılan üzüklərin xeyli hissəsinin qaşı qiymətli daşlardandır. Lakin onların bəzilərinin daşları tapılmamışdır. Üzərində qaşları qalanlara və tapılan ayrı-ayrı qaşlara əsasən bu dövrdə əqiq, firuzə, mirvari, dağ bülluru və s. mineral daşlardan daha çox istifadə olunduğunu göstərmək olar. Üzüklərin hamısı əsasən təkqaşlıdır. Onların dairəvi yuva kimi düzəldilən qaş yerləri üzüyün halqası üzərinə lehimlənmişdir. Belə üzüklərin sağanağının en kəsiyi dairəvi, lentvarı və ovalvarı şəkildədir. Onlardan biri tökmə texnikası ilə hazırlanmışdır. En kəsiyi yarımdairəvi olan bu üzüyün üzəri kəsmə texnikası ilə zəngin naxışlanmışdır (XIII tablo, 1). Halqasının üstü biri digərinin içərisində yerləşdirilmiş romb formalı naxışlarla, onlar arasındakı sahə isə üçbucaq fiqurlarla bəzədilmişdir. Onun halqasının diametri 1,8 sm-dir. Üzüyün qaşı qırılmışdır. Hazırlanma texnikasına və üzərinin zəngin naxışlanmasına əsasən onun daş-qaşlı üzük olduğunu güman edirik.

Daş-qaşlı üzüklərdən ikisi məftildən düzəldilmişdir (XIII tablo, 2—3). Digər ikisinin sağanağı isə lentvarı formadadır (XIII tablo, 4—5). Onlar qaşlarının formasına görə də fərqlənirlər. Üzüklərin bəzisinin qaşı əvvəldə qeyd etdiyimiz kimi halqaya lehimlənmişdir. Bəzisininki isə qaş yerində qarmaqlar düzəldilməsi yolu ilə hazırlanmışdır (XIII tablo, 2). Belə üzüklərin qaşı adətən firuzə rəngli mineral daşdan olur. Arxeoloji qazıntılar zamanı üzüyün mineral daşdan olan qaşlarına çox təsadüf olunur.

Qeyd etməliyik ki, üzüyün qiymətli qaşını qarmaqla saxlama texnikası ilə düzəldilmiş bir ədəd qızıl üzük Bakının yaxınlığındakı Qobustandan tapılmışdır[132]. Yazılıtəpə adlı orta əsr yaşayış yerindən əldə edilən bu üzük nadir incəsənət nümunəsidir (XIII tablo, 6). Üzüyün halqa hissəsi quyruqları üstə durmuş iki ilan fiqurundan düzəldilmişdir. İlanlar üzüyün tac formalı qaşını açılmış ağızlarında tutmuşlar. Yüksək zövqlə hazırlanmış bu üzüyün qaşı firuzədəndir. Onun qaş yerləşən tac hissəsinin ortası qabarıqdır. Mineral daşı saxlamaq üçün düzəldilmiş qarmaqlar qabarıq tərəfdən yuxarıda yerləşir. Onların arası kəsmə naxışlıdır. Qabarıq hissənin alt tərəfi isə yazını xatırladan xətlərlə bəzənmişdir. Üzüyün halqasının en kəsiyi dairəvidir. Onun sağanağının diametri 1,7, tac hissəsininki isə 1,2X1,3 sm-dir. Yazılıtəpə orta əsr yaşayış yerindən əldə olunan maddi mədəniyyət qalıqlarına əsasən üzük X—XIII əsrlərə aid edilir[133]. Zəngin naxışlanmış və qiymətli daş-qaşdan hazırlanan bu incəsənət əsəri yəqin ki, yüksək zümrədən olan əyanlara—zadəganlara məxsus olmuşdur.

Haqqında danışdığımız üzüklər orta əsr ustalarının daşların müxtəlif cür işlənməsi, cilalanması və başqa üsullarına yaxından bələd olmalarını göstərməklə yanaşı, həm də tədqiq olunan dövrdə zərgərlik sənətinin yüksək səviyyədə inkişaf etməsinə dəlalət edir.

**Metalqaşlı üzüklər.** Bakıdan tapılan IX—XIII əsrlərə aid üzüklərin içərisində metalqaşlılar nisbətən çoxluğu təşkil edir (XIII tablo, 7—18). Üzüklərin bəzisinin halqa hissəsinin en kəsiyi lentvarı, bəzisininki isə dairəvidir. Onların bir hissəsi məftildən, bir hissəsi isə ensiz lentvarı təbəqədən hazırlanmışdır. Bu üzüklərin qaşları da müxtəlif cür düzəldilmişdir. Üzüyün halqasına nisbətən xeyli iri olan metal qaşlar düzbucaqlı, çoxbucaqlı (ulduzvarı), dairəvi və badamvarıdır. Qaşların bəziləri naxışlanmış, bəziləri isə sadədir. Naxışlı

---

[129] *Бартольд В. В.* Отчет об осмотре древнего мусульманского кладбища в г. Баку. Изв. Императорского археологического комиссии, вып. 16, СПб. 1905, с. 110 — 119.
[130] Yenə orada, s. 119.
[131] Yenə orada, s. 118—119.

[132] Muradova F. M., Rüstəmov C. N. Yazılıtəpədə arxeoloji qazıntılar. AMM, XI c. Bakı, 1993, s. 98.
[133] Muradova F. M., Rüstəmov C. N. Göstərilən əsər. s. 98. II tablo, 9-cu şəkil

üzüklərdən bir neçəsinin qaşı düzbucaqlı formadadır. Onlardan birinin qaşı üzərinə qoşa romb zərb olunmuşdur. Bəzəkli görünmək üçün rombların içərisi düz xətlərlə hissələrə bölünmüşdür (XIII tablo, 7). Digərinin isə nisbətən hündür düzəldilmiş qaşının üstünə dairə həkk edildiyindən ilk baxışda qaşlı üzüyü xatırladır (XIII tablo, 8). Düzbucaqlıya oxşayan üzüyün enli qaşının bir tərəfi qövsvarı çıxıntı şəklində düzəldilmişdir (XIII tablo, 9). Başqa bir düzbucaqlı qaşın üstünə isə qarşı-qarşıya duran üçbucaqlar vurulmuşdur (XIII tablo. 10). Üzüklərdən iki ədədinin qaşı çoxbucaqlı-ulduzvarı formadadır. Onlar naxışsızdır (XIII tablo, 11—12). Qaşı dairəvi olan metal üzüklər isə tam sadə formadadırlar (XIII tablo, 13—14).

Metal üzüklər içərisində qaşı badamvarı düzəldilənlər diqqəti daha çox cəlb edir. Belə üzüklərdən üç ədəd tapılmışdır. Onların hər üçünün qaşı naxışlıdır. Bu üzüklərdən birinin qaşı üzərindəki badamvarı fiqurun içərisinə paralel xətlər çəkilmiş və xətlər arasındakı sahəyə yazını xatırladan işarələr vurulmuşdur (XIII tablo, 16). Digər iki ədədinin qaşında isə yarpaq formada rəsm zərb olunmuşdur (XIII tablo, 17—18). Bəhs etdiyimiz üzüklərin metal qaşları üzərindəki naxışlar yaxşı qalmışdır. Çox güman ki, bu üzüklərdən möhür-üzük kimi istifadə olunmuşdur. Azərbaycan ərazisindən tapılan belə tip üzüklərin mənşəyi qədimdir[134]. Orta əsrlərə aid üzük-möhürlər isə Beyləqandan[135] aşkar olunmuşdur. Onlardan birinin üstündə quş rəsmi təsvir olunmuş, digərininkində isə yazı vardır. Möhürlərin nə üçün istifadə edilməsi isə maraqlı məsələlərdən biri olub, tədqiqatçıların diqqətini cəlb etmişdir. R. M. Vahidov üzük möhürlərin birinci növbədə ayrı-ayrı şəxslərin hüququnu təmsil edən möhür kimi işləndiyini, həm də ondan bəzək əşyası kimi də istifadə edildiyini göstərir[136]. M. İ. Maksimova qeyd edir ki, möhürlər yazılı sənədləri təsdiq etməkdən başqa, qədimdə az yayılmış qıfıl və cəftələri də əvəz etmişdir. Ona görə də möhürlər o dövrdə az-çox əmlakı olan hər kəsin məişətində lazımlı bir əşya kimi mövcud olmuşdur[137]. Tədqiqatçı V. İ. Raspopova da Soqdadan aşkar edilən ilk orta əsrlərə aid çoxlu üzük möhürləri tapılma vəziyyətinə görə həm yuxarı təbəqə, həm də sadə şəhər əhalisinə aid edir[138]. Bu cəhətdən Bakıdan 1969-cu ildə 2-ci qazıntı sahəsindən tapılan metal möhür də diqqəti cəlb edir (XVI tablo, 4). Möhür—ucları kəsilmiş dördbucaqlı formalı tunc təbəqədən və ona qaynaq edilmiş, en kəsiyi oval formada dəstəkdən ibarətdir. Dəstəyin asılmaq üçün deşiyi vardır. Möhürün üstünə yazıya oxşar işarələr həkk olunmuşdur. Üst təbəqədən tapılan bu möhür son orta əsrlərə aiddir.

Üzüklərin bir qrupunu təşkil edən halqalar müxtəlif formada düzəldilmişdir (XIII tablo, 22—29). Onların bəzilərinin ucları bir-birinə qaynaq edilmiş, bəzilərininki isə sadəcə olaraq ya bir-birinin üstünə qatlanmış və ya uc-uca yaxınlaşdırılmışdır. Halqalardan birinin üstü qatlanaraq qaş kimi düzəldilmişdir (XIII tablo, 22). Yoğun məftildən hazırlanan bu halqanın ucları birləşdirilmişdir. Halqa formalı üzüklər içərisində bir ədədi onlardan fərqlənir. Bu üzük lent şəklində olub, ucları qaynaq edilmişdir (XIII tablo, 23). O bir növ müasir nişan üzüyünü xatırladır.

Qeyd etməliyik ki, haqqında danışdığımız üzük halqaların çoxu məftildən düzəldilmişdir. Ümumiyyətlə, istər qədim və istərsə də orta əsrlərdə[139] bəzək əşyalarının hazırlanmasında məftil əsas material kimi xüsusi rol oynamışdır. Bu da həmin dövrlərdə məftilçəkmə texnikasının inkişaf etdiyini göstərir.

**Bilərziklər.** Bəzək əşyalarının bir qrupunu da bilərziklər təşkil edir. İçərişəhərdən tapılan bilərziklərin əksəriyyəti qırıqlardan ibarət olub, formasını dəqiq müəyyən etmək mümkün deyil. Onların içərisində bir neçə ədədi salamat qalmışdır. Bilərzikləri hazırlanma üsuluna görə iki yerə bölmək olar: Mis məftildən düzəldilən hər iki qrup bilərziyin en kəsiyi dairəvidir. Lakin bilərziklər bir-birindən yoğun və nazik məftildən hazırlanmasına görə fərqlənirlər. Yoğun məftildən düzəldilmiş hər iki bilərziyin uc hissələri qırıldığından onların formasını müəyyən etmək mümkün olmadı (XIV tablo, 1—2). Ola bilsin ki, uc hissələri müəyyən quruluşa malik olmuşdur.

Nazik məftillərdən burma yolu ilə hazırlanmış bilərziklərdən bir ədədinin qırığı əldə edilmişdir (XIV tablo, 3). Adətən belə formalı bilərzik üçün bir neçə eyni diametrli məftillər götürülür və bir-birinin üstünə qoyularaq burulur. Sonra isitmə vasitəsilə məftillərin hamısı birlikdə tədricən əyilib dairəvi şəklə salınır.

Bakıda qədim müsəlman qəbiristanlığından tapılan metal bəzək əşyalarının içərisində iki mis və bir gümüş bilərzik də vardır[140]. Tapıntılar haqqında verilən hesabatda materialları misdən olanların yalnız adı çəkilmiş, qızıl və gümüşdən olanlarının bəzilərinin isə adı sadalanmaqla bərabər şəkli də verilmişdir. Müəllif materialları xarakterinə və analogiyasına əsasən XII—XIII əsrlərə aid edir[141].

---

[134] *Пахомов Е.. А.* Дисламские печати и резные камни музея Истории Азербайджана. МКА. т. I. Баку. 1964. с. 104: Vahidov R.M. Göstərilən əsəri, s. 63. *Бабаев И. А.* Памятники глиптики Азербайджана античной эпохи и раннего средневековая. Автореф. канд. диссертации. 1965. Yenə onun: Qafqaz Albaniyasında qliptika əşyalarının istehsalına dair AMM, VII c., 1973, s. 208.

[135] *Минкевич-Мустафайева Н. В., Рагимов А. В.* Перстни с печатями из Байлакана, ДАН Азерб ССР, № 9. 1965. с. 89—91.

[136] Vahidov R. M. Göstərilən əsəri, s. 65.

[137] *Максимова М. И.* Геммы из некрополя Мцхеты-Самтовро ВГМГ, XVI в. Тбилиси. 1950. с. 238.

[138] *Распопова В. И.* Металлические изделия раннесредневекового Согда. Л., 1980, с. 116.

[139] *Исмизаде О. Ш. О* ювелирном ремесло в древней Кавказской Албании. AMM, VII c., Bakı, 1973. s. 277.

[140] İbrahimov F. Ə. Örənqaladan tapılmış metal bilərziklər və onların texnologiyasına dair. «Azərb. SSR EA Xəbərləri» (tarix-fəlsəfə və hüquq seriyası), 1967, № 2, s. 97.

[141] Bartold V. V. Göstərilən əsəri, s. 119.

Gümüş bilərziyin şəkli qaldığı üçün haqqında müəyyən məlumat vermək imkanı yaranır. Bu gümüş bilərzik eynilə yuxarıda bəhs etdiyimiz burma üsulu ilə hazırlanan mis bilərzik kimi düzəldilmişdir (XIV tablo, 4). Lakin gümüş bilərzik dairəvi formada bütöv saxlanılmışdır. Arxeoloji tapıntılardan məlumdur ki, metal bilərziklər həm bütöv dairə formasında, həm də ucları bir-birindən xeyli aralı şəkildə hazırlanır[142]. Metal bilərziklər elə ustalıqla hazırlanmışdır ki, ilk baxışda onların bir-birinə lehimlə yapışdırıldığı güman olunur. Burma texnikası ilə düzəldilmiş bilərziklər Beyləqan[143] və Qəbələ[144] qazıntılarından da tapılmışdır. Qeyd etmək maraqlı olar ki, orta əsr şəhərlərindən burma texnikası ilə hazırlanmış çoxlu şüşə bilərziklər də aşkar olunmuşdur[145]. Ümumiyyətlə metaldan burma üsulu ilə düzəldilmiş bəzək şeylərinin mənşəyi qədimdir[146]. Məhz buna əsaslanaraq burma şüşə bilərziklərin də bu texnika əsasında hazırlandığını söyləmək olar.

Qeyd etməliyik ki, bilərzik, üzük və başqa metal bəzəklərin hazırlanmasında məftildən çox istifadə olunmuşdur. Məftilçəkmənin mənşəyi qədimdir.

Getdikcə öz sənətlərini təkmilləşdirən mahir ustalar gümüş və qızıldan metal saplar da düzəltmişlər. Bakıda Şirvanşahlar sarayının məqbərəsindəki qazıntı zamanı XV əsrə aid uşaq qəbrində belə saplarla toxunmuş nəbati təsvirli ipək parça tapılmışdır[147]. Arxeoloji materiallar orta əsr ustalarının məharətlə hazırladığı metaldan bəzək əşyalarına əsasən həmin dövrdə məftilçəkmənin dövrün texniki tələbləri səviyyəsində inkişaf etdiyini göstərir. Müxtəlif diametrli məftillərdən ibarət arxeoloji materiallara və etnoqrafik müşahidələrə əsasən orta əsrlərdə məftilçəkmə əməliyyatı bərpa edilmişdir[148].

Tədqiqatçı Ö. Ş. İsmizadə Albaniya ərazisindən tapılan məftildən hazırlanmış bəzəklərə əsaslanaraq, hələ eramızın əvvəllərindən məftilçəkmə texnikasının mövcud olduğunu göstərir[149].

**Sırğalar.** İçərişəhərdəki arxeoloji qazıntılar zamanı sırğalara az təsadüf olunmuşdur. Adətən nazik metal məftillərdən hazırlanan sırğalar güclü korroziya nəticəsində, uzun müddət torpaqda qaldığından tez parçalanır. Öyrəndiyimiz dövrə aid qazıntılardan formasını saxlayan sırğalar az tapılmışdır. Lakin qazıntılardan əldə edilən halqaların bəzilərinin üzük, bəzilərinin isə sırğa kimi istifadə edildiyi şübhə oyatmır. Belə ki, halqa formasında hazırlanıb ucları bitişdirilməyənlərin sırğa kimi işlənilməsi güman olunur. Belə sırğalar Qəbələdən və Beyləqandan da tapılmışdır[150]. İstər son orta əsrlər, istərsə də müasir dövrdə bu cür sırğalardan çox istifadə olunur. 1970-ci ildə İçərişəhərdən en kəsiyi lentvarı formada bir mis sırğa tapılmışdır. Dairəvi formalı bu sırğanın bir tərəfində qulaqcıq vardır. Çıxıntı şəklində olan həmin qulaqcığın orta hissəsində kiçik dairəvi deşik açılmışdır (XIV tablo, 5). Sırğanın bir tərəfində isə zərb üsulu ilə vurulmuş xətlərin yeri bilinir.

1967-ci ildə tapılan məftildən düzəldilmiş halqa formalı sırğanın isə üstündə iki ədəd muncuq qalmışdır (XIV tablo, 6). Metaldan şarvarı muncuqlar keçirilmiş bu sırğanın oxşarları başqa orta əsr şəhərlərindən də məlumdur[151].

Qeyd etməliyik ki, Bakıda Şirvanşahlar sarayının məqbərəsində 1946-cı ildə aparılan qazıntılar zamanı bir cüt qızıl sırğa tapılmışdır[152]. Sırğaların asqı hissəsi halqa formasında olub, en kəsiyi dairəvidir. Məftildən düzəldilmiş halqanın aşağı tərəfinə romb formalı asma taxılmışdır. Onun ortasına yaxşı cilalanmış çəhrayı rəngli qiymətli daş qoyulmuşdur (XIV tablo, 7). Sırğanın bir tayının daşı tapılmamışdır. Sırğanın halqa hissəsinin diametri 1,1 sm-dir. Həmin sırğalar XV əsrə aid edilir[153]. Qızıl sırğanın halqa hissələri yuxarıda qeyd etdiyimiz qazıntıdan tapılan mis halqalara formaca tam oxşardır.

Bakıda qədim müsəlman qəbiristanlığından tapılan bəzəklər içərisində iki ədəd gümüş və bir ədəd qızıl sırğanın da adı çəkilir[154]. Hesabatda onlar haqqında çox qısa məlumat vardır. Müəllifin yazdığına görə iki ədəd gümüş sırğanın muncuqlardan ibarət asmaları olmuşdur. Gümüş sırğalar barədə bundan başqa nə məlumat verilir, nə də onların rəsmi göstərilir. Lakin yuxarıda verilən məlumatdan bəlli olduğu kimi sırğa Bakı qazıntılarından da tapılmışdır. Təəssüflə deməliyik ki, gümüş sırğanın təsviri geniş verilmədiyi üçün onun dəqiq oxşarını da araşdırmaq çətindir. Lakin bir ümumi cəhəti qeyd etməliyik ki, həm gümüş, həm də arxeoloji

---

[142] Bartold V. V. Göstərilən əsəri, s. 118.

[143] İbrahimov F. Ə. Göstərilən əsəri, s. 99, tablo 5, 7.

[144] İbrahimov F. Ə. Örənqaladan tapılmış metal bilərziklər və onların texnologiyasına dair. «Azərb. SSR EA Xəbərləri» (tarix, fəlsəfə və hüquq seriyası). 1967, № 2. s. 97. tablo 5, 7, 9, 10.

[145] Osmanov F.L. Qəbələnin metal məmulatı. Azərbaycan tarixi məsələləri, Bakı.1966, s.45, IV tablo, 4.

[146] *Джафарзаде И. М.* Историко-археологический очерк Старой Гянджи. Баку, 1949. с. 81; Osmanov F. L. Qəbələdən tapılan şüşə bilərziklər haqqında «Azərb. SSR EA Məruzələri», 1963. № 1. s. 63—65; *Фоменко В. П.* Стеклянные изделия VIII—X вв. городища Оренкала. Azərb. SSR EA Xəbərləri» (ictimai elmlər seriyası), . № 7. 1962 s. 38.

[147] Minkeviç-Mustafayeva N. V. Göstərilən əsəri; Aslanov Q. M. Qolubkina T. İ., Sadıqzadə Ş. Q. Göstərilən əsər, s. 6.

[148] İbrahimov F. Ə. Göstərilən əsəri. s. 98.

[149] İsmizadə Ö. Ş. Qədim Qafqaz Albaniyasında zərgərlik sənəti haqqında. AMM. VII cild, Bakı, 1973, s. 277.

[150] Osmanov F. L. Göstərilən əsəri, s. 42. IV tablo, 13. İbrahimov F. Ə. Göstərilən əsəri. s. 186, XXVIII tablo. 12 - 16.

[151] *Якобсон А. Л.* Раскопки на Орен-Кала в 1953—1955 гг.. МИА СССР № 67. М.—Л., 1959, с. 140, 113-cü şəkil «j»; Osmanov F.L. Göstərilən əsəri, s. 42.

[152] Aslanov Q. M., Qolubkina T. İ., Sadıqzadə Ş. Q. Göstərilən əsəri, s. 23, IV tablo, 10.

[153] Yenə orada, s. 23.

[154] Bartold V. V. Göstərilən əsəri, s. 119.

qazıntıdan tapılan mis sırğanın muncuqdan ibarət asmaları vardır. Bu da həmin növ sırğaların Bakıda geniş çeşiddə hazırlandığını göstərir.

Gümüşlə birlikdə tapılan qızıl sırğa orijinal quruluşa malikdir. Şəkli verildiyi üçün onun forması, naxışları və hazırlanma texnikası haqqında müəyyən fikir söyləmək mümkündür. Bu qızıl sırğanın qulağa keçirilən hissəsi qarmaq və ya sual işarəsi formasında olub, üzərinə zərb üsulu ilə nöqtələr vurulmuşdur. Sırğanın başdan-başa nöqtələr və kiçik xətlərlə bəzədilmiş asma hissəsi isə ayparanı xatırladır. Ayparanın üstündə onun uclarını birləşdirən yarımdairə formasında zəncirvarı naxışlar vardır. Qulağa taxılan hissə asmanın ortasına bənd edilmişdir (XIV tablo, 8). Qızıl sırğa XII—XIII əsrlərə aid edilir[155].

Qeyd etməliyik ki, orta əsr şəhərlərindən arxeoloji qazıntılar nəticəsində buna oxşar mis sırğalar tapılmışdır[156]. Lakin onların qulağa keçirilən asma hissəsi Bakının qızıl sırğasındakı kimi, şar formalıdır. Sırğanın qulağa keçirilən hissəsi qızıl məftildən düzəldilmişdir. Onun asması isə təbəqə qızıldan döymə üsulu ilə hazırlanmışdır.

XIII əsrə aid bir cüt belə sırğa Mingəçevirin III yaşayış yerindən 1949-cu ildə aşkar edilmişdir[157]. Mingəçevir sırğasının da yalnız qızıl məftildən düzəldilmiş qulaqdan asılan sual işarəsi formalı hissəsi tapılmışdır. Bütün bunlar bu növ sırğaların orta əsrlərdə geniş yayılmasını göstərməklə bərabər, həm də Azərbaycan zərgərlərinin qarşılıqlı mədəni əlaqələrini nümayiş etdirir.

**Asmalar.** Bakıdan tapılan qadın bəzəkləri içərisində asmalar—medalyonlar xüsusi qrup təşkil edir. Asmalar boyunbağı ilə birlikdə, bəzən isə ayrı taxılır. Misdən və tuncdan ibarət olan bu bəzəklər döymə və tökmə texnikası ilə hazırlanmışdır. İçərişəhərdən əldə olunanların bir hissəsi mis təbəqədən döymə üsulu ilə düzəldilən medalyon şəkillidir (XIV tablo, 9—13). Nazik təbəqədən ibarət olan bu bəzəklərin bəzisinin uc tərəfləri qırılmışdır. Onlardan iki ədədinin orta hissəsində kiçik deşik vardır. Birində deşiyin ətrafına batıq dairə çəkilmişdir. Təbəqə şəklində olan belə asmalardan birinin ortası 0,5 sm diametrdə deşikdir. Dairəvi formada olan bəzəklərdən digəri isə tökmə üsulu ilə hazırlanmışdır (XIV tablo, 12). Onun bir üzü bəzəklidir. Çox hissəsi isə qırılmışdır.

Bu cür bəzəklərdən biri də dairəvi şəkildə olan kiçik asmadır. Onun bir üzü naxışlı, digəri isə hamardır. Asmalardan ikisi formasına görə fərqlənir. Onlar əsasən konusvarı şəkildə hazırlanmışdır. Məftildən olan bir asma ürək formasındadır (XIV tablo, 14). Təbəqə misdən düzəldilmiş, en kəsiyi lentvarı olan kiçik asma isə badamvarı formadadır. Onun bir üzü zəngin naxışlanmışdır (XIV tablo, 15). Asmanın orta hissəsində iki ayparanın bir tərəfinin birləşməsindən əmələ gələn naxış vardır. Onun hər iki tərəfindəki iri nöqtələr günəşi xatırladır. Ayparaların birləşən hissəsinin üstündə dördyarpaqlı gül rəsmi çəkilmişdir. Təsvir etdiyimiz naxışlar zərb üsulu ilə vurulmuşdur. Bu bəzəyin arxa tərəfində asılmaq üçün ilgəyi vardır.

Qeyd etməliyik ki, qazıntılardan şarvarı gövdəli kiçik zınqırova oxşar bəzəklər də tapılmışdır. Bunlar, şübhəsiz, asma tipli bəzəklərin bir qrupunu təşkil edir. Onlardan paltar üstünə tikmək üçün də istifadə olunur. Bakıda qədim qadın qəbrində aşkar edilən çoxlu müxtəlif, zəngin bəzəklərin içərisində kiçik şarvarı zınqırova bənzər bəzək də vardır[158]. Bundan yəqin ki, ya asma və ya da paltar üstünə tikilən bəzək kimi istifadə olunmuşdur. Etnoqrafik məlumatlara görə belə tip bəzəklərdən son zamanlara qədər qadın paltar bəzəyi və asma kimi istifadə olunmuşdur.[159]

Zınqırov formalı bəzəklər həm Azərbaycanın orta əsr abidələrindən və həm də qonşu respublikaların orta əsr şəhərlərindən tapılmışdır.[160]

Bu bəzəklərin vəzifəsini aydınlaşdırmağa kömək edən tapıntılardan biri də Astara rayonunun Şavqo kəndi yaxınlığından əldə olunan gümüş boyunbağıdır.[161] Sünbül formalı bu boyunbağıdan 8 ədəd gümüş şarlar asılmışdır. Şarların hər biri ona qaynaq edilmiş qulp vasitəsilə boyunbağıya bənd olunmuşdur. Boyunbağı onunla birlikdə tapılan gümüş pullara əsasən XI — XII əsrlərə aid edilir.[162]

**Sancaqlar.** Azərbaycan orta əsr şəhərlərindən müxtəlif formalı metal sancaqlar aşkar olunmuşdur.[163]

Bakıda 1946-cı ilin yazında Şirvanşahlar sarayının məqbərəsində aparılan qazıntılar zamanı qəbirdən tapılan bir ədəd qızıl sancaq maraqlıdır.[164] Sancağın başı altıləçəkli gül formasındadır. Onun ləçəklərinə qırmızı rəngdə cilalanmış qiymətli daşlar qoyulmuşdur. Ortaya isə nisbətən iri dairəvi firuzəyi qaş salınmışdır.

---

155 Yenə orada, s. 118—119.

156 İsmizadə Ö. Ş. 1960-cı ildə Qəbələnin qala hissəsində aparılan arxeoloji qazıntılar haqqında. AMM, V cild, 1964, s. 106, XV tablo, 3, XVI tablo, 7.

157 Aslanov Q. M., Qolubkina T. İ., Sadıqzadə Ş. Q. Göstərilən əsər, s. 23, IV tablo, 1.

158 Bartold V. V. Göstərilən əsəri, s. 119.

159 *Кильчевская З. А.* Азербайджанская женский костюм XIX века из селения Оджек Халданского района, МКА, т. II, Баку, 1951, с. 192 — 195.

160 Osmanov F. L. Göstərilən əsəri, s. 43; s. 140, 113-cü şəkil «b»; İbrahimov F. Ə. Göstərilən əsəri, s. 187; Ataqarıyev Y. Göstərilən əsəri, s. 72—73. 23-cü şəkil, 16—18

161 Aslanov Q. M. Qolubkina T. İ., Sadıqzadə Ş. Q. Göstərilən əsər, s.26, VIII tablo, 1.

162 Yenə orada.

163 İbrahimov F. Ə. Göstərilən əsəri, s. 189—192.

164 *Минкевич-Мустафаева Н. В.* Гробницы в усыпальнице Ширваншахов. Доклад АН Азерб. ССР 1947, №1; *Асланов Г. М., Голубкина Т.* И., Sadıqzadə Ş.Q. Göstərilən əsər, s.30. IV tablo, 7.

Onun diametri 1,5 sm, sancağın uzunluğu isə 3,8 sm-dir. Sancaq XV əsrin ortalarına aid edilir (XV tablo, 2). Yuxarıda qeyd etdiyimiz kimi orta əsr Bakı zərgərlərinin hazırladıqları əşyalar qiymətli daşlarla bəzədilmişdir. Bütün bunlar isə zərgərlik sənətinin yüksək inkişafına dəlalət edir.

Bakıda qədim müsəlman qəbiristanlığından tapılan bir qızıl sancaq və dörd ədəd sancağın gümüşdən başlığı xüsusilə diqqətə layiqdir.[165] Tapıntı haqqındakı hesabatda bu bəzəklərin yalnız adları çəkilir, haqqında məlumat verilmir. Lakin əsərdə qızıl sancağın rəsminin olması onun haqqında müəyyən fikir söyləmək imkanı yaradır. Xüsusi formaya malik bu qızıl sancaq həqiqətən əsl insəsənət əsəridir. Onun qızıl başlığının üzəri çox nəfis şəkildə şəbəkə formasında hazırlanmışdır (XV tablo, I). Şəkildən göründüyü kimi, qızıl məftillə hörülən bu hissənin dörd tərəfi tacvarı şəkildə qabarıqdır. Sancağın baş hissəsində 0,5 sm uzunluğunda çıxıntı vardır. Onun zərif işlənilmiş başlığı 2,5, sancağın tiyəsi isə 4,5 sm-dir. Məlum olduğu kimi, qəbir materialları XII — XIII əsrlərə aid edilir.[166] Bakı sancaqlarının oxşarlarına isə hələlik təsadüf olunmamışdır.

**Toqqa və toqqa bəzəkləri.** Metal əşyaların bir hissəsi də kəmər bəzəklərindən ibarətdir. Arxeoloji qazıntılar nəticəsində onlardan yalnız bir neçəsi tapılmışdır. Bəzəklərdən ikisi lent formalı mis təbəqədəndir. Birinin yanlarında kəmərə bənd edilmək üçün qarmaqları vardır. Onun əks tərəfində üç yerdə simmetrik dairələrdən ibarət naxış çəkilmişdir.

Lentvarı formalı digər bəzək isə əvvəlkinə nisbətən ensizdir. Onun hər iki tərəfi qırılmışdır. Üzərində paralel xətlər arasında uzadılmış dairələr və onları bir-birindən ayıran qoşa nöqtələr təsvir edilmişdir (XV tablo, 3). Misdən olan bu kəmər bəzəkləri döymə üsulu ilə düzəldilmiş və üzəri zərb vasitəsilə naxışlanmışdır (XV tablo, 4).

Toqqa bəzəklərinin iki ədədi isə müxtəlif formadadır. Biri üç yarpaqlı çiçək şəklində olub arasında deşik açılmışdır. Onun üzərində çiv və ya ox ucuna oxşar naxış vardır. Təbəqə misdən döymə üsulu ilə hazırlanmışdır. Şübhəsiz, bu bəzək də kəmərə bənd edilmək üçün düzəldilmişdir (XV tablo, 5).

Şəbəkə formasında naxışlanmış başqa kiçik bəzək tuncdan tökmə üsulu ilə hazırlanmışdır. Onun bir tərəfi qırılmışdır. Çox güman ki, bu bəzək rombvarı formada olmuşdur (XV tablo, 6).

Yuxarıda qeyd etdiyimiz qədim qəbir materialları içərisindən misdən iki ədəd kəmər qadağı (toqqa başı) da tapılmışdır[167]. Əlimizdə əlavə məlumat olmadığından onların quruluşu haqqında təsəvvür yaratmaq mümkün deyildir.

Arxeoloji qazıntılardan bir neçə ədəd kəmər başlığı da tapılmışdır. Onların dörd ədədi ikigözlüdür. Üç ədədinin bağlanmaq üçün olan dilçəyi düşmüş (XV tablo, 7—9), birininki isə paslanaraq üstünə yapışmışdır (XV tablo, 10). Eyni formalı olan bu dörd toqqa başlığının üç tərəfi çıxıntılı düzəldilmişdir. Onlar mis məftildən döymə üsulu ilə hazırlanmışdır. Bəhs etdiyimiz toqqaların oxşarı Beyləqandan məlumdur.[168] Bu toqqalar XII — XIV əsr materialları ilə birlikdə tapılmışdır.

1966-cı ildə əldə edilən toqqa başlığı əvvəlkilərdən fərqlənir. Üçbucağı xatırladan bu toqqanın kəmərə bərkitmək üçün qarmağı vardır. Həmin toqqa IX — X əsrlərə aid saxsı məmulatı ilə birlikdə aşkar olunmuşdur (XV tablo, 11).

Bakıdan tapılan bədii incəsənət əşyaları içərisində ilk dəfə təsadüf edilən fantastik balıq fiquru diqqəti cəlb edir. 1964-cü ildə İçərişəhərdə Qız qalasının şimalındakı qazıntılar zamanı aşkar edilən bu balıq orijinal formaya malikdir.[169] Onun üzəri başdan-başa sədəflə örtülmüşdür. Quyruğu halqavarı şəkildə qatlanaraq belinə birləşdirilmişdir. Balığın gözləri düyməcik kimi qabarıq formada, qulaqları isə çıxıntı şəklində verilmişdir. Fiqurun ağzı açıq şəkildə təsvir olunmuşdur. Balıq fiqurunun ümumi uzunluğu 8,2, hündürlüyü isə 4,5 sm-dir. Fiqur tuncdan tökmə üsulu ilə hazırlanmışdır. Spektral analiz onun tərkibinin 84,75% mis, 8% sink, 4% qurğuşun, 1,02% qalay, 1% arsen, 0,8% dəmir, 0,3% nikel, 0,07% sürmə və gümüş, 0,83% bismutdan ibarət olduğunu müəyyənləşdirmişdir[170] (XVI tablo, 1).

Misdən yüksək səviyyədə tökülmüş bu incəsənət nümunəsi dövrün sənətkardığını qiymətləndirmək və onun bədii əhəmiyyətini qeyd etmək cəhətdən xüsusi maraq doğurur.

Bu formada balıq fiquru hələlik bizə məlum deyildir. Lakin tədqiqat dövründə Bakının maddi mədəniyyət materialları üzərində çoxlu balıq rəsmlərinə təsadüf olunur. Bu da yəqin ki, Bakının dəniz sahilində yerləşməsi ilə əlaqədardır.

Balıq fiquru, balıq rəsmləri və qazıntılar zamanı tez-tez rast gəldiyimiz balıq sümükləri şəhər əhalisinin başqa sənət və təsərrüfat sahələri ilə bərabər balıqçılıqla da geniş məşğul olduğunu göstərən faktlardır.

---

[165] Bartold V. V. Göstərilən əsəri, s. 119.
[166] Yenə orada, s. 118.

[167] Bartold V. V. Göstərilən əsəri. s. 119.
[168] *Якобсон А. Л.* Раскопки, с. 144. Yenə onun. Археологические исследования на городише Орен-кала в 1957 г. МИА СССР, № 133, М.—Л., 1965. с. 18, 9-cu şəkil «v».
[169] İsmizadə Ö. Ş., Ciddi H. Ə. Bakı Qız qalası. Bakı, 1968.
[170] Analiz Azərbaycan EA Tarix İnstitutunun arxeoloji-texnoloji laboratoriyasında, kimya elmləri doktoru İ. R. Səlimxanovun rəhbərliyi ilə aparılmışdır.

Mənbələrin məlumatına görə orta əsrlərdə Xəzər dənizi balıq sərvətlərilə zəngin olmuşdur[171]. Burada çoxlu nərə, uzunburun, bölgə, qızılbalıq, siyənək, ziyad, külmə, sazan və s. qiymətli balıqlar vardır[172].

Balıqçılıq şəhər əhalisinin iqtisadiyyatında əsas yerlərdən birini tutduğu kimi, xalqın təsviri incəsənətində də öz əksini tapmışdır. Heç də təsadüfi deyildir ki, tədqiq olunan dövrdə Bakının saxsı qabları üzərində balıq rəsmləri incəsənət motivi kimi geniş yayılmışdır.[173] Onlardan biri diqqəti daha çox cəlb edir. Altına möhür vurulmuş bu şirli qabın içəridən mərkəzi hissəsində bir-birinin ardınca üzən qızılbalığa oxşar üç balıq rəsmi təsvir olunmuşdur (XVI tablo, 3), Beləliklə, Bakı sənətkarları öz əsərlərində balıq rəsmlərindən həm tək-tək, həm də qrup şəklində bəzək elementi kimi istifadə etmişlər. Ümumiyyətlə, balıq təsvirlərinə Azərbaycanın orta əsr maddi mədəniyyət nümunələri üzərində də çox tez-tez təsadüf olunur.[174] Balıqların bəziləri motiv yaxınlığına görə Bakı materialları ilə oxşarlıq təşkil edir. Bu cəhətdən Qəbələ və Mingəçevir tapıntıları da maraqlıdır. Onlardan Qəbələdən[175] əldə edilmiş mis medalyonun üzərində sağdan sola, saat əqrəbinin əksinə bir-birinin ardınca üzən səkkiz balıq, Mingəçevirdən[176] aşkar olunan gümüş qab içərisində isə ardıcıl üzən qızıl suyuna çəkilmiş beş balıq rəsmləri təsvir olunmuşdur. Göründüyü kimi, balıqların sayını nəzərə almasaq, həm Bakı, həm Qəbələ, həm də Mingəçevir materialları üzərindəki süjet bir-birini təkrar edir. Hər üç tapıntı XII — XIV əsrlərə aid edilir.

Bütün bunlar isə orta əsrlərdə təsərrüfat həyatı ilə əlaqədar olaraq balıq rəsminin Azərbaycan incəsənətində geniş istifadə olunan əsas motivlərdən biri olduğunu göstərir. Ümumiyyətlə balıq rəsmi Qafqazın təsviri incəsənətində mənşə etibarilə qədimdən məlumdur.[177]

İ. M. Cəfərzadənin apardığı tədqiqatlar nəticəsində hələ e. ə. III minillikdə Qobustanın qaya rəsmləri içərisində balıq təsvirlərinin olduğu müəyyən edilmişdir.[178] Qobustanın qaya rəsmlərindəki balıq təsvirləri və müasir dövrdə Abşeron əhalisinin balığı var-dövlət əlaməti kimi qiymətləndirməsi onu söyləməyə əsas verir ki, bu ərazidə balıq lap qədimlərdən totem kimi yayılaraq ona bolluq rəmzi kimi sitayiş edilmişdir.

Bakıdan tapılan miniatür balıq fiquruna gəldikdə isə onun simvolik məna daşıdığını güman edirik.

Balıqçılıqla əlaqədar olaraq İçərişəhərdən 1975-ci il qazıntısı zamanı 2,8 m dərinlikdən aşkar edilmiş miniatür formalı dəmir lövbər də böyük maraq doğurur (XVI tablo, 6). Onun üzərini qalın pas örtdüyündən bir qədər kobud şəklə düşmüşdür. Lövbərin buynuzları ox ucu formasındadır. Məlum olduğu kimi, dənizdə gəmilərin suda saxlanılmasında əsas vasitə olan lövbər gəmiçilik təsərrüfatında xüsusi yer tutmuşdur. Bizə elə gəlir ki, rəmz məqsədilə hazırlanan bu lövbərin sahibi çox ehtimal ki, dənizçi olmuşdur.

Bakıdan tapılan metal əşyalar içərisində çoxlu miqdarda mis və gümüş sikkələr də vardır. Pullar həm arxeoloji qazıntılar, həm də təsadüfi tapıntılar nəticəsində aşkar edilmişdir.[179] Həm tək-tək, həm də dəfinə şəklində tapılan sikkələr arxeoloji qazıntılar zamanı mədəni təbəqələrin və oradan əldə edilən materialların dövrünü dəqiq təyin etmək cəhətdən xüsusi əhəmiyyət kəsb edir. Maraqlı burasıdır ki, pulların bir çoxu Bakıda zərb olunmuşdur. Tədqiqatçı S. B. Aşurbəyli də bütün bunlara əsaslanaraq Bakıda orta əsrlərdə zərbxananın olduğunu qeyd edir.[180]

Bizə elə gəlir ki, Bakı ərazisindən təsadüfən tapılan ilk orta əsrlərə aid xeyli pul dəfinələri də arxeoloji tədqiqatların nəticələri ilə birlikdə şəhərin qədim tarixinin araşdırılması baxımından böyük elmi əhəmiyyətə malikdir[181].

Bakıdan tapılan pulların içərisində Şamaxı, Təbriz, Pənahabad, Gəncə, Dərbənd, Şərvan, Mahmudabad, İrəvan, Ani, Qızıl Orda, Kaşan, Sarayəlcədid, Buxara, Qəzvin, Sultaniyyə və s. şəhərlərdə zərb olunanları da vardır. Həmin şəhərlərdə zərb edilən çoxlu sikkələrin Bakıdan tapılması isə orta əsrlərdə bu şəhərlərlə Bakı arasında güclü mədəni və ticarət əlaqələrinin olduğunu göstərir.

## METALIN BƏDİİ İŞLƏNMƏSİ VƏ SƏNƏTKARLIQ TƏŞKİLATLARI

Bədii metalişləmə xalq yaradıcılığında əsas yer tutan sənətkarlıq sahələrindən biridir. Azərbaycanda bu sənətin qədim bir tarixi vardır.

---

171 *Ал-Истахри.* Из книги путей и царств, СМОМПК, вып. 29, Тифлис, 1901, с. 25.
172 Gül Q. Göstərilən əsəri, s. 29, 44.
173 Bakı, İçərişəhər çöl qeydi, № 81 (1964). 21 (1968), 216 (1967).
174 Əhmədov Q.M. Azərbycanın şirsiz... c. 77, XIII tablo, 3, 4, 5, 11; *Якобсон А. Л.* Художественная керамика... с. 249, XX tablo, 2; *Исмизаде О. Ш. О* раскопках в Кабеле... с. 106, XIV tablo, I; *Якобсон А. Л.* Археологические исследования... с. 14, 7-ci şəkil, a.
175 İsmizadə Ö. Ş. Göstərilən əsəri.
176 Aslanov Q. A., Qolubkina T. İ., Sadıqzadə Ş. Q. Göstərilən əsər, s. 43, IX tablo, 1.

177 *Мешшаников И. И.* Каменные статуи рыб-вишапы на Кавказе и Северной Монголии, ЗКВ, I cild, 1925.
178 *Джафарзаде И. М.* Наскальные изображения Кобыстана. Тр. Ин-та истории АН Азерб. ССР, т. XIII, Бакы, 1958, с. 75,
179 *Рагимов А. В.* Бакинский клад (находка 1948 г.) МКА, т. III, Баку, 1953, с. 98—126; *Исмизаде О. Ш.* Отчет о раскопках на террит , Ичеришехер, 1969, Аззрб. ЕА ТИЕА, инв. № 7498, fond 1, siyahı 17; Rizvan Əliyev. Gümüş pullar dəfinəsi. «Kommunist» qəzeti, 3 fevral 1972-ci il.
180 *Ашурбейли С. Б.* Очерк истории средневекового Баку, 1964, с. 96.
181 *Пахомов Е. А.* Клады Азербайджана и других республик и краев Кавказа, вып. I, Баку, 1959, с. 12.

Qazıntılar nəticəsində tapılan metaldan nadir sənət nümunələri bu sənətkarlığın lap qədim zamanlardan püxtələşdiyini xəbər verir. Məhz buna görə də bu xalq yaradıcılığının ətraflı tədqiqi qədim sənətkarlarımızın irsinin öyrənilib yayılması cəhətdən böyük əhəmiyyət kəsb edir.

Orta əsr abidələrindən tapılan bədii sənətkarlıq yadigarları həmin dövrdə bu məqsəd üçün əsasən misdən və tuncdan istifadə edildiyini göstərir. Xüsusilə mis üzərinə vurulmuş incə, zərif naxışlar ona füsunkar gözəllik vermiş və orta əsr sənətkarlarının bədii yaradıcılıq qabiliyyətini canlı əks etdirmişdir.

Orta əsr tapıntıları bu dövrdə əsasən zərbetmə, cızma, basma, tökmə və s. üsullardan geniş istifadə olunduğunu göstərir. Metal üzərindəki naxışlar bu üsulların bir-birini tamamlayaraq müxtəlif kompozisiyalı əsərlər yaradılmasına əsas vasitə olmuşdur. Orta əsr zərgərlərinin yaradıcılıqla işlətdiyi müxtəlif texnoloji üsullar Azərbaycanın bədii sənətkarlıq tarixində hələ çox qədimlərdən mövcud olmuşdur.[182]

Qeyd etməliyik ki, tədqiq olunan dövrdə zərgərlik bir sənət sahəsi kimi tam formalaşmış, hətta onun daxilində parçalanma baş verərək yeni sənət sahələri yaranmağa başlamışdır.[183]

Orta əsrlərdə Bakının metal məmulatı üzərindəki naxışlar əsasən həndəsi və nəbati bəzəklərdən ibarətdir. Qeyd etməliyik ki, orta əsr abidələrindən tapılan müxtəlif maddi mədəniyyət əşyaları, xüsusilə saxsı məmulatı üzərindəki ornamentlər də həmin dövrdə həndəsi və nəbati naxışların üstün mövqe tutduğunu təsdiq edir.[184] Müşahidələrə əsasən demək olar ki, tədqiqat dövründə metal üzərində sadə həndəsi fiqurlardan yaradıcı şəkildə geniş istifadə olunmuşdur. Bu dövrün zəngin nəbatət aləmi də gözəl kompozisiyalı əsərlər yaratmaq üçün əsas mənbə rolunu oynamışdır.

Metal üzərində naxışların salınması sənətkardan gərgin zəhmət, yüksək zövq, istedad və məharət tələb edir. Arxeoloji tapıntılardan bəlli olduğu kimi orta əsrlərdə bədii yaradıcılıqla bacarıqlı və təcrübəli ustalar məşğul olmuşlar. Mahir sənətkarlar mövcud naxışlardan istifadə edərək ona yaradıcı yanaşmış, onun motiv və kompozisiyalarını yeni ünsürlərlə zənginləşdirmişlər.

Bakıdan arxeoloji qazıntılar nəticəsində tapılan və üzərində müxtəlif bədii naxışlar olan metal məmulatı əsasən bəzək əşyalarından, bir hissəsi isə məişət qablarından ibarətdir. Mətndə yeri gəldikcə qruplar üzrə zərgərlik məmulatı və metal qabların naxışlanması barədə geniş danışıldığından burada təkrar olunmamaq üçün ümumi məlumatla kifayətlənirik. Qeyd etməliyik ki, etnoqrafik materiallar da bədii sənətkarlığın davam etdirilməsi baxımından diqqəti cəlb edir. Bu cəhətdən Azərbaycanın Bakı, Şəki, Şamaxı, Gəncə, Ağdam, Naxçıvan, Ordubad və s. şəhərlərində, xüsusilə İsmayıllı rayonunun Lahıc qəsəbəsində hazırlanan müxtəlif çeşidli, zəngin motivli misgərlik və zərgərlik məmulatı böyük əhəmiyyətə malikdir.[185]

Göründüyü kimi, Azərbaycanın qədim və orta əsr ustalarının yaratdığı və getdikcə inkişaf etmiş zəngin köklərə malik bədii sənətkarlıq ənənələri sonrakı əsrlərdə yaradıcılıqla davam etdirilib yeni motivlərlə zənginləşdirilərək müasir dövrə qədər gəlib çatmışdır.

• • •

Orta əsrlərdə şəhər əhalisinin əsas kütləsini sənətkarlar təşkil edirdi. Həmin dövrdə Bakıda metalişləmənin dəmirçilik, nalbəndlik, bıçaqçılıq, çilingərlik, misgərlik, zərgərlik, nəqqaşlıq sahələrilə yanaşı dulusçuluq, daşişləmə, həkkaklıq, memarlıq, rəssamlıq və s. müxtəlif sahələri də fəaliyyət göstərirdi.

Arxeoloji qazıntılar nəticəsində aşkar olunan geniş çeşidli materiallar tədqiq olunan dövrdə sənətkarlığın dövrün tələbinə uyğun səviyyədə yüksək inkişaf etdiyini göstərir. Bütün bunlara baxmayaraq orta əsr mənbələrində sənətkarlıq təşkilatları və onların daxili quruluşu haqqında yazılı məlumat yoxdur. Lakin orta əsrlərlə məşğul olan mütəxəssislər həmin dövrdə sənətkar təşkilatlarının olmasına şübhə etmirlər. Qeyd etməliyik ki, son zamanlara qədər saxlanılan kustar sənətkarlıq emalatxanalarında aparılan müşahidələr və toplanılan etnoqrafik materiallar da tədqiqat dövründə sənətkarlıq təşkilatının varlığını söyləməyə əsas verir.

Qeyd etmək lazımdır ki, Bakıda 20 ilə yaxın aparılan arxeoloji qazıntıların nəticələri göstərilən fikirləri təsdiq edən real maddi dəlillərlə zəngindir. Bütün deyilənlər orta əsrlərdə Bakıda sənətkarlıq təşkilatının fəaliyyət göstərdiyini təsdiq edir. Yəqin ki, bu təşkilatın üzvləri vaxtaşırı toplaşaraq öz daxili sənət və ticarət işlərini, həmçinin müxtəlif sosial məsələləri müzakirə etmiş, öz peşələrinin gələcəyi haqqında düşünmüş,

[182] *Асланов Г. М., Голубкина Т. И., Садыхзаде Ш. Г.* Каталог золотых и серебянных предметов из археологических раскопок Азербайджана, Баку. 1966.

[183] *Ибрагимов Ф. А.* Металлообрабатывающее ремесло в средневековых городах Азербайджана в IX — XIII вв., Автореф. Баку, 1969, с. 21.

[184] *Якобсон А. Л.* Художественная керамика Байлакана, МИА СССР, М.—Л., 1959 с 228—300.

[185] Quliyev H. XIX və XX əsrin əvvəllərində Lahıc qəsəbəsində mis qab istehsalı, «Azərb. SSR EA Xəbərləri» (ictimai elmlər seriyası), № 1, 1962; Quliyev H., Tağızadə N. Metal və xalq sənətkarlığı. Bakı. 1968; Əsədova S. D. XIX —XX əsrlərdə Azərbaycan zərgərlik incəsənəti, Bakı, 1978.

sənətin texnoloji inkişafına xüsusi fikir vermişlər. Şübhəsiz, bu təşkilat bütün orta əsrlər boyu şəhərin ictimai-iqtisadi və siyasi həyatında böyük rol oynamışdır.

Sənətkar təşkilatları haqqında məlumatlara epiqrafik abidələrdə də təsadüf etmək olar. Azərbaycanda o cümlədən Abşeronda XVIII—XIX əsrlərə aid epiqrafik abidələrdə sənətkarlıqla bağlı yazılara da təsadüf edilmişdir.[186]

Maraqlı bir məlumat Ani şəhərindəki epiqrafik abidələrdən bəllidir. Tədqiqatçıların qeyd etdiyinə görə bu abidələrdə xeyli sənətkar cərgələri — dəmirçilər, nalbəndlər, toxucular, dərzilər, başmaqçılar və sairənin adları saxlanılmışdır ki, bunların küçə və məhəllələrdə birləşən sənətkar sexlərilə əlaqədar olduğu göstərilir.[187] Bu cəhətdən tədqiqat obyekti olan Bakının və Abşeronun memarlıq abidələri üzərindəki epiqrafik məlumatlar daha böyük maraq doğurur. Bakıda şəhərin cənub qala darvazasında və Abşeronun Kürdəxanı kəndində türbənin üzərindəki yazılarda sənətkarlıq təşkilatı ilə əlaqədar olan məlumatlar diqqəti xüsusilə cəlb edir.[188]

Bakı tarixinin tədqiqatçısı S. B. Aşurbəyli bu epiqrafik abidələrə əsaslanaraq orta əsrlərdə Bakıda, o cümlədən Abşeronda sənətkarlıq təşkilatlarının fəaliyyət göstərdiyini söyləyir. O, belə təşkilatların hələ XI əsrdə Ön Asiyanın bir çox ölkələrində geniş yayıldığını və XIV əsrdə Kiçik Asiya ölkələrinin ictimai həyatında görkəmli rol oynadığını göstərir.[189] Ərəb səyyahı İbn Bəttutə «Əxi» adlanan bu təşkilatı zəhmətkeş əhali ilə sənətkarların sıx əlaqəsi olan təşkilat kimi qeyd edir.[190]

Qeyd etməliyik ki, sənətkarlıq təşkilatlarının daxili quruluşu haqqında da tədqiq olunan dövrə aid yazılı mənbələrdə məlumat yoxdur. Bu məsələnin öyrənilməsi üçün işin texnoloji cəhətlərinə xüsusi diqqət yetirilməlidir. Məhz karxananın daxili quruluşu və orada işin təşkilini araşdırmaq üçün arxeoloji tapıntıların etnoqrafik baxımdan təhlil edilməsinin əhəmiyyətini xüsusi qeyd etməliyik.

Məlum olduğu kimi, karxanada sənətin xarakterindən asılı olaraq işləyənlərin miqdarı müxtəlif olur. Təbii haldır ki, dəmirçilik, misgərlik və s. kimi aparıcı sahə olan metalişləmə emalatxanalarında işin mürəkkəbliyi ilə əlaqədar olaraq çox işçi qüvvəsi lazımdır. Məsələn, Qala darvazası qapılarını düzəltmək üçün körükçəkən, maşa ilə metalı tutan və çevirən, çəkiclə onu döyəcləyən işçilərsiz keçinmək olmaz. Həmçinin misgərxanada qazan, səhəng, tava və s. iri məişət qablarını düzəltmək məqsədi ilə mis külçələri döyüb təbəqə şəklinə salmaq üçün müəyyən vərdişi olan çoxlu işçi tələb olunur. Məhz belə istehsal prosesi istər-istəməz ustanın köməkçilərlə birlikdə işləməsini zəruri edir. Arxeoloji materiallar və etnoqrafik müşahidələr Bakıda orta əsrlərdə metalişləmə emalatxanalarında bilavasitə istehsalatla bağlı olan müxtəlif dərəcəli usta, şagird və köməkçilərdən ibarət işçilərin çalışması, habelə onların sənətkarlıq təşkilatlarında birləşməsi haqqında ümumi də olsa müəyyən təsəvvür yaradır. Metalişləmə və metallurgiyanın inkişafını orta əsr feodal şəhərlərinin iqtisadi qüdrətinin bir növ göstəricisi kimi də qiymətləndirmək olar. Bu baxımdan Bakıda öyrəndiyimiz dövrə aid zəngin çeşidli metal məmulatı tapıntıları və onlarla bağlı ayrı-ayrı sənətkarlıq sahələrinin varlığı şəhərin orta əsrlərdə Şərqin qüdrətli sənətkarlıq, ticarət və mədəniyyət mərkəzlərindən biri kimi yüksəldiyini aydın nümayiş etdirir.

---

[186] *Нейматова М. С.* Эпиграфические памятники и их значении в изучении социально-экономической истории Азербайджана (XIV—XIX вв.). Авт. док. днсс. Баку. 1968, с. 93.

[187] *Аракелян Б.* Н. Развитие ремесла и товарного производства в Армении в IX - XIII вв.. СА, XXVI, М, 1965, с. -16.

[188] *Дорн Б.* Отчет об ученом путешествии по Кавказу и южному берегу Каспийского моря. Труды Восточного отделения Императорского Археологического общества," ч. VIII, СПб, 1864, с. 302. Müq. et. Aşurbəyli S.B. Göstərilən əsəri, s.104.

[189] Aşurbəyli S. B. Göstərilən əsəri, s. 103— 104.

[190] Bertels E. Nizami. M. 1956, s 74 — 75.

## NƏTİCƏ

Arxeoloji qazıntılardan çoxlu miqdarda tapılan metal əşyaları orta əsrlərdə Bakıda metalişləmənin dəmirçilik, misgərlik və zərgərlik kimi sahələrinin müstəqil fəaliyyət göstərdiyini və dövrün texniki tələbləri səviyyəsində inkişaf etdiyini söyləməyə əsas verir.

Tədqiq etdiyimiz dövrə aid əmək, təsərrüfat alətləri və silahların hazırlanmasında əsasən qara metaldan istifadə olunmuşdur. Kəsər alətlərin ağzına polad təbəqə bağlamaq kimi texnoloji üsuldan Bakı ustaları bacarıqla istifadə etmişlər. Etnoqrafik müşahidələr bu əlverişli üsulun son zamanlara qədər davam etdiyini göstərir. Arxeoloji qazıntılardan tapılan bülöv daşları onların kəsər alətlərin itilənməsində geniş tətbiq olunduğunu göstərən əsas dəlildir. Misgərlik və zərgərlik məhsulları isə əsasən əlvan və qiymətli metallardan hazırlanmışdır. Əldə edilən arxeoloji materiallar IX — XVII əsrlərdə göstərilən sənətlərdə döymə, qaynaqetmə, bəndetmə, pərçimləmə, tökmə, məftilçəkmə, lehimləmə, basma, zərbetmə və s. bu kimi texniki üsulların geniş tətbiq edildiyini təsdiq edir. Arxeoloji qazıntı materiallarının tədqiqi göstərir ki, bu dövrdə sənət sahələri daxilində ixtisaslaşma artmışdır. Qazıntılardan əldə edilən materiallara əsasən demək olar ki, orta əsrlərdə yüksək keyfiyyətlə düzəldilmiş bəzi əmək alətləri, məişət əşyaları və bəzək şeylərinin isə çoxu nəsildən-nəslə keçərək son zamanlara qədər özünün qədim formasını saxlaya bilmişdir. Bu isə Bakı sənətkarlarının hələ orta əsrlərdə məhsulu təkmilləşdirmək sahəsində çox iş gördüklərini göstərir. Dekorativ-tətbiqi sənətin maraqlı sahələrindən biri olan bədii metalişləmə də tədqiq etdiyimiz dövrdə yüksək səviyyədə olmuşdur.

Bakıda metalişləmədə hansı yanacaq növündən istifadə edilməsinin aydınlaşdırılması da maraqlıdır. Bu cəhətdən Bakı nefti də diqqəti cəlb edir. Bizə elə gəlir ki, o dövrdə neftdən işıq və istilik üçün istifadə edilməsi ilə yanaşı, sənətkarlığın müəyyən sahəsində işlədilməsi də şübhə doğurmur. Çox güman ki, Bakı neftindən yüksək temperatur tələb olunmayan sənət sahəsində yanacaq kimi istifadə olunmuşdur.

Lakin Bakının şimalında Xəzərsahili boyu Nabran meşələri bu cəhətdən xüsusi maraq doğurur. Hər halda bu meşələrdə istehsal olunan kömürbasma məhsullarından sənətkarlıq ocaqlarında istifadə olunması şübhəsizdir. Buradan kömürün daşınmasına gəldikdə isə quru yol ilə birlikdə dəniz-su yolu da yəqin ki, az əhəmiyyət kəsb etməmişdir. İçərişəhərin yaxınlığında qala divarının xaric tərəfi — XIX əsrin sonlarınadək «Kömürçü meydanı» adlandırılan yer də xeyli maraq doğurur. Burada dağ kəndlərindən kəl arabalarında, dəvələrdə taxıl, kömür gətirilib satılması haqda H. Sarabskinin məlumatı deyilənləri bir daha təsdiq edir (H. Sarabski. Köhnə Bakı, 1982, s. 120). Bütün yuxarıda deyilənlər orta əsrlərdə Bakı şəhərində metalişləmənin bir sənət sahəsi kimi tam formalaşdığını və dövrün texniki tələbləri səviyyəsində inkişaf etdiyini göstərir.

## QƏBUL OLUNMUŞ İXTİSARLAR

*Azərb. SSR EA TİEA* — Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun elmi arxivi
*Azərb. SSR EA Məruzələri* — Azərbaycan SSR Elmlər Akademiyasının Məruzələri
*ААЭН* — Архитектура Азербайджана эпохи Низами
*Azərb. SSR EA Xəbərləri* — Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri
*Azərb. SSR EA TİAİEKMT* — Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutu aspirantlarının ikinci elmi konfransı məruzələrinin tezisləri.
*AMM* — Azərbaycanın maddi mədəniyyəti
*ATM* — Azərbaycan tarixi məsələləri
*ATMƏ* — Azərbaycan Tarixi Muzeyinin əsərləri
*ATDM* — Azərbaycan tarixinə dair materiallar
*ВГМГ* — Вестник Государственного музея Грузии
*Изв. АН Азерб. ССР* — Известия Академия наук Азербайджанской ССР.
*Изв. Аз. АК* — Известия Азербайджанского археологического комитета
*Изв. АН Турк. ССР* — Известия Академия наук Туркменской ССР
*Изв. Аз. ФАН СССР* — Известия Азербайджанского филиала Академии наук СССР
*Изв. ИАК* — Известия Императорского археологического комиссии.
*ИАЭА* — Исследования по археологии и этнографии Азербайджана
*КСИИМК.* — Краткие сообщения Института истории материальной культуры
*МКА* — Материальная культура Азербайджана
*МИА СССР* — Материалы и исследования по археологии СССР
*СА* — Советская археология
*СМОМПК* — Сборник материалов для описания местностий и племен Кавказа
*ЗКВ* — Записки Коллегии Востоковедов
*ДАН Азерб. ССР* — Доклады Академии наук Азербайджанской ССР
*Труды Аз. ФАН СССР* — Труды Азербайджанского филиала Академии наук СССР.

*Труды ГИМ* — Труды Государственного Исторического Музея
*Труды ГАИМК* — Труды Государственной Академии Истории Материальной культуры.
*ТИИ* — Труды Института Истории АН Азербайджана
*TİƏ* — Tarix İnstitutunun əsərləri
*ТАЭ* — Труды Азербайджанской экспедиции
*ТГИМА* — Труды Государственного Исторического Музея Армении
*ТХАЭЭ* — Труды Хорезминской археолого-этнографической экспедиции
*ТЮТАКЭ* — Труды Южно-Туркменской археологической комплексной экспедиции
*SPA* — A Survey of Persian Art.

# TABLOLAR



**Tablo 1**



**Tablo 2**



**Tablo 3**



**Tablo 4.**



**Tablo 5**



**Tablo 6**



**Tablo 7**



**Tablo 8**




**Tablo 9**




**Tablo 10**




**Tablo 11**



**Tablo 12**



**Tablo 13**




**Tablo 14**



**Tablo 15**



**Tablo 16**



**Tablo 17**

**Fərhad Əlibaba oğlu İbrahimov**
**BAKIDA METALİŞLƏMƏ TARİXİ**
**(IX-XVII əsrlər)**


**Nəşriyyat redaktoru:** ***R.Əliyev***
**Rəssamı:** ***V.Ustinov***
**Texniki redaktoru:** ***T. Ağayev***
**Korrektoru:** ***Ə.Musayeva***

**Yığılmağa verilmiş 23.05.94. Çapa imzalanmış 16.02.95.**
**Kağız formatı 60x84/16. Mətbəə kağızı № 2.**
**Şrifti ədəbi qarnitur. Yüksək çap üsulu. Şərti çap vərəqi 5,12.**
**Rəngli şərti ç/v. 5,12. Tirajı 500. Sifariş 229.**

**“Elm"nəşriyyatı.**
**370143, Bakı – 143, Hüseyn Cavid prospekti, 31.**
**Akademiya şəhərciyi. Əsas bina.**
**Azərbaycan EA mətbəəsi.**
**Bakı, Hüseyn Cavid prospekti, 31.**